

# Azərbaycan İrana nota verdi

XİN Azərbaycan Respublikasının vətəndaşı Fərid Səfərlinin vəziyyətinə aydınlıq gətirilməsi məqsədilə, İranın ölkəmizdəki səfirliyinə nota ünvanlayıb. "Unikal" xəbər verir ki, bunu Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin yerli media nümayəndələrinin sorğusuna cavabında bildirib.

Səh.2



## Zaur Hüseynovun tənqidlər qarşısında susqunluğu


# UNİKAL

№10 (2144) 10 mart 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru




## Kövrək anlaşma pozula bilər: Qarşıdurmanın bir addımlığındayıq

Səh.9

## Metrostansiyaların tikilməsində gecikmənin səbəbləri sirr olaraq qalır

Günümüzün 1-2 saatını tıxaclarda keçiririk.Tıxacların aradan qaldırılması üçün hər dəfə müxtəlif təkliflər verilir. Onlardan biri də Bakı metropoliteninin stansiyalarının sayının artırılmasıdır.Bir müddət öncə bu barədə fikir bildirən iqtisadçı Samir Əliyev "Facebook"dakı şəxsi profilində yazmışdı ki, metrostansiyaların tikilmə sürəti çox gecikir: "Bakıda metro nəqliyyat vasitəsi qismində ilk dəfə 1967-ci ildə istifadəyə verilib və bu il 55 ili tamam olub. 55 ildə cəmi-cümlətanı 26 metrostansiya istifadəyə verilib. Yəni, 2 ildə cəmisi 1 stansiya işə düşüb. Məlumat üçün qeyd edim ki, Bakıda metropolitenin tikintisinə 1949-cu ildə başlanıb və 1967-ci il noyabrın 6-da 5 stansiya - "Bakı Soveti", "Sahil", "28 Aprel", "Gənclik" və "Nəriman Nərimanov" istifadəyə verilib. 1989-cu ildə isə "Xalqlar Dostluğu" və "Əhmədli" stansiyaları açılmaqla ümumi stansiyaların sayı 18-ə çatdırılıb".

Səh.8

## "Qiymət artımının qarşısını almaq mümkün görünmür"



Milli Cəbhə Partiyasının sədri, deputat Razi Nurullayev "Unikal"a müsahibə verib. O, Azərbaycanda pensiya yaşının azaldılmasından, insanların gənc yaşda bir sıra xəstəlikdən vəfat etməsindən, dərmanların qiymətinin baha, keyfiyyətinin isə aşağı olmasından və ərzaq məshullarının qiymətinin...

Səh.4

## Dövlət Turizm Agentliyinə qarşı ittihamlar səngimir



Azərbaycanın görkəmli maarifçilərindən biri olan Ömər Faiq Nemanzadənin İngiltərədə, Kembric şəhərində yaşayan nəticəsi Ülviyyə Pepinovanın bir müddət öncə ölkəmizə səfəri turistlərin tualet problemini yenidən qabardıb. Ülviyyə xanım öz narazılığını sosial şəbəkə hesabı üzərindən...

Səh.5

## Ermənistan sülh və insanlıq əleyhinə cinayətlərini davam etdirir



Azərbaycan haqq savaşında qalib gələrək 30 ilə yaxın işğal altında olan torpaqlarını yağı tapdağından azad etsə də, düşmən tərəf təxribatlardan əl çəkmək bilmir. Martın 5-də Xankəndi-Xəlfəli-Turşsu torpaq yolundan istifadə edilməklə Ermənistan Respublikasından hərbi ləvazimatların, silah-sursatın və şəxsi heyətin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinə...

Səh.11

# "Sünisən, bir az özün ol" - Azərdən Günelə



***Aparıcı Azər Zahid (İsmayılov) müğənni Günel Ələkbərovanı süni adlandırıb.***

Onlar arasında mübahisə "Fəlidən doğru xəbər" verilişində yaşanıb. Günel aparıcının "Deyirlər ki, Günel, gəl, TikTokda qalmaqal edək. Mənim də balam var, evimə çörək aparım" sualına "Olmayıb" cavabını verib.

Onun bu sözləri Azəri əsəbiləşdirib. O, Güneli yalan danışmaqda ittiham edib:

"Necə olmayıb? Ağzımı açdırma. Özün ol da... Orda da, burda da sünisən. Bir az özün ol, olanı de".

A.İsmayılov ona bu cür təkliflərin çox gəldiyini etiraf edib:

"Deyiblər, adını desəm eyib olar. Aktyor da, müğənni də var ki, deyib. Elə nüanslar var ki, deyə bilmirəm".

"Azər özü elə təkliflər edir, Necə oldu birdən tutuzdurdu" deyə, günel söyləyib.

# "Şəxsi həyatım mənə aiddir, heç kimə yox" - Gülay Zeynallı

***"Mənim şəxsi həyatım, ailəm mənə aiddir. Heç kimə yox. Hər zaman sənətimdən, gördüyüm işlərdən danışsınlar. İnsanlar kiminsə şəxsi həyatı, nə iş gördüyü maraqlı deyil".***

"Unikal" olay-a istinadən xəbər verir ki,bu sözləri "Şou xəbər"ə açıqlamasında müğənni Gülay Zeynallı deyib. Sənətçi övladının atası Kamil Zeynallı barədə danışıb: "Nə yaxşı o cür insan övladımın atasıdır. Kamili də hamı tanıyır. Azərbaycanda iki treyner varsa, onlardan biri Kamildir. Həm də onun əməlləri... Gözəl münasibət dostluqdan ötədir. Bəzən elə dostluqlar var ki, bir müddət sonra ötüb keçir. Normal münasibət daha gözəldir".



# Ramal bəstələrinin qiymətini açıqladı

***Müğənni Ramal İsrafilov və Əməkdar artist Abbas Bağırov barışıb.***

Bu haqda Ramal "Şou xəbər"ə açıqlamasında deyib. Novruz bayramı ilə bağlı olan çəkilişdə hər iki ifaçı yer alıb. Ramal Abbas ifa edən zaman mikrofonu götürərək onu təqdim edib.

"Novruz nə üçündür, Novruz gəldi barışdın. Mən barışmışam" deyə, ifaçı söyləyib.

İsrafilov daha sonra bəstələrindən söz açıb. O, bir mahnını 15 manata satması haqda deyilənlərə belə reaksiya verib: "O vaxt 15 minə mahnı yazırdım. İndi 15 minə mahnı var? Türkiyədə 45 min mahnı olanda, bizimkilər deyirdi, bu qiymətə mahnı olar? İndi türkiyədə 70-80 minə çıxıb. Məndə də 15 mindən bahadır. İndi mən olmuşam Castin Biber. Sevirəm, əylənrəm".





# Azərbaycanı "Avroviziya 2023"də onlar təmsil edəcək

***"Avroviziya 2023"? Beynəlxalq Mahnı Müsabiqəsində Azərbaycanı TuralTuranX dueti təmsil edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə İTV məlumat yayıb.

Qeyd edək ki, Tural və Turan Bağmanovlar ifa etdikləri mahnının həm də müəllifləridirlər.

Xatırladaq ki, "Avroviziya 2023" mahnı müsabiqəsi bu il 9-13 may tarixlərində Böyük Britaniyanın Liverpul şəhərində keçiriləcək.

# Brilliant Dadaşova İsraildə klip şəkdirdi - "Nə əcəb"



***Xalq artisti Brilliant Dadaşova İsraildə çəkdirdiyi klipini təqdim edib.***

"Nə əcəb" adlı mahnının söz və musiqisi Murad Zeynalabdinə məxsusdur. Ekran işində Dadaşovanın stili üzərində Elnur Həsənov çalışıb. Klipin rejissoru Hüseyn Cavadzadədir.

Müğənni klipini yayımlayaraq xanımları 8 Mart Beynəlxalq Qadınlar Günü münasibəyilə təbrik edib və "Heç zaman heç bir qadının gözü yolda qalmayıb" sözlərini yazıb.

Qeyd edək ki, Brilliant Dadaşova ötən ilin sonunda Zəfər Günündə İsraildə konsert verib.

# Nazilə Səfərli: "Hədiyyə verməmək üçün gizlənən kişilərdən inciməyin"

***Xəbər verdiyimiz kimi, bu gün səkkiz mart beynəlxalq Qadınlar günü bayramıdır.***

"Unikal" bizim media-ya istinadən xəbər verir ki, şairə və qiraətçi Nazilə Səfərli əlamətdar gün ilə bağlı sosial şəbəkə hesabında diqqətçəkən paylaşım edib.

Sənətçi bu gündə kişilərin qadınlara qarşı olan diqqətsizliyindən şikayətlənib: "Qadına azadlıq verildiyi gün kişilərin matəm günüdür. Özü-sözü azad olan qadın kişi üçün həmişə problem olub. Odur ki, hədiyyə verməmək üçün gizlənən kişilərdən inciməyin. O vermir, siz verin. Olan olmayana, qanan qanmayana hər zaman borcludur".





# FED-in qərarları Azərbaycanda dolları bahalaşdıracaq? - Açıqlama

***"Federal Ehtiyatlar Sisteminin (FED) son açıqlamasından sonra dollar qlobal valyuta bazarlarda yenidən möhkəmlənib. Belə ki, FED uçot dərəcəsində gözlənilən daha çox artımlara getmək niyyətindədir".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, dərəcənin 2023-cü ildə 6.0 faizədək yüksəldilməsi də istisna edilmir: "Bu ayın 21-22-də FED yenidən bir araya gələcək. FED yüksək dərəcə artımlarına getmək istəyi bu ilin ilk aylarında ABŞ-da iqtisadi göstəricilərin proqnozlaşdırılandan daha yaxşı olması ilə bağlıdır. Avro da ABŞ puluna nisbətən dəyər itirməkdədir. Hazırda 1 avro almaq üçün 1 dollar 6 sentdən daha az ödəmək lazımdır. Bütövlükdə, qlobal valyuta bazarında volatillik müşahidə olunmaqdadır".

Deputat qeyd edib ki, dolların qlobal bazarlarda möhkəmlənməsi regional valyutalara psixoloji təsirsiz ötüşmür: "Azərbaycan Mərkəzi Bankının ilin əvvəlində təşkil etdiyi hərraclarda dollara tələb aşağı idisə, artıq xarici valyuta alıcılarının sayı artmaqdadır. Mərkəzi Bank martın 7-də 44.8 milyon, martın 2-də 51.7 milyon, fevralın 28-də 42.7 milyon dolları hərraclarda satıb. Bütövlükdə, fevral ayında dollara tələbin yenidən yaranması müşahidə olunub. Aydındır ki, manatın məzənnəsinə təsir göstərən əsas iqtisadi faktorlar ölkəyə daxil olan valyutanın həcmi, eyni zamanda Dövlət Neft Fondu tərəfindən hərraca çıxarılan valyutanın məbləğidir. Valyutaya olan tələbin əhəmiyyətli hissəsi Dövlət Neft Fondu tərəfindən ödənilir. Bu baxımdan, Neft Fondunun hərraca çıxartdığı vəsaitlərin həcmi dollara olan tələbin ödənilməsində çox önəmlidir. Bu da təbii ki, manatın məzənnəsi baxımından vacib hesab olunur. Nəzərə alsaq ki, xarici ölkələrdəki tərəfdaşlarımızda milli valyutaların məzənnələri də əslində iqtisadi faktorlardan biridir.

Azərbaycanda hələ ki, üzən məzənnə rejiminə keçilməyib. Mərkəzi Bank prosesə birbaşa intervensiya etmək imkanlarını qoruyub saxlayır. Ona görə də növbəti aylarda da manatın məzənnəsinin necə dəyişməsi birbaşa Azərbaycan Mərkəzi Bankının mövqeyindən asılı olacaq".

***Seymur Əli***

# Kamran Əliyev İsmayıllıda vətəndaşları qəbul edəcək

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Kamran Əliyev cari il martın 15-də, saat 10:00-da İsmayıllı rayon prokurorluğunun inzibati binasında İsmayıllı, Qobustan, Şamaxı, Qəbələ və Oğuz rayon sakinlərinin qəbulunu keçirəcək.***

Baş Prokurorluğun mətbuat xidmətindən "Unikal"a verilən xəbərə görə, vətəndaşların qəbulla bağlı qeydiyyatı və İsmayıllı rayonuna gəlmələrinin təşkili rayon prokurorları tərəfindən həyata keçiriləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin (012) 361-14-07 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı, eləcə də prokurorluğun sosial şəbəkələrdəki səhifələri (instagram, facebook, telegram, twitter) vasitəsilə də qəbula yazıla bilərlər.

# Zaur Hüseynovun tənqidlər qarşısında susqunluğu

## Metrostansiyaların tikilməsində gecikmənin səbəbləri sirr olaraq qalır



***Günümüzün 1-2 saatını tıxaclarda keçiririk. Tıxacların aradan qaldırılması üçün hər dəfə müxtəlif təkliflər verilir. Onlardan biri də Bakı metropoliteninin stansiyalarının sayının artırılmasıdır.***

Bir müddət öncə bu barədə fikir bildirən iqtisadçı Samir Əliyev "Facebook"dakı şəxsi profilində yazmışdı ki, metrostansiyaların tikilmə sürəti çox gecikir: "Bakıda metro nəqliyyat vasitəsi qismində ilk dəfə 1967-ci ildə istifadəyə verilib və bu il 55 ili tamam olub. 55 ildə cəmi-cümlətanı 26 metrostansiya istifadəyə verilib. Yəni, 2 ildə cəmisi 1 stansiya işə düşüb.

Məlumat üçün qeyd edim ki, Bakıda metropolitenin tikintisinə 1949-cu ildə başlanıb və 1967-ci il noyabrın 6-da 5 stansiya - "Bakı Soveti", "Sahil", "28 Aprel", "Gənclik" və "Nəriman Nərimanov" istifadəyə verilib. 1989-cu ildə isə "Xalqlar Dostluğu" və "Əhmədli" stansiyaları açılmaqla ümumi stansiyaların sayı 18-ə çatdırılıb".

Ekspert xatırlatmışdı ki, bu, məhz Azərbaycanın SSRİ-nin tərkibində olduğu dövrdür: "Bu o dövrdür ki, pulumuzun böyük hissəsi "İttifaq ehtiyacları" üçün əlimizdən alınırdı və bizə cüzi hissəsi saxlanılırdı. Həmin cüzi pulla 43 ildə 18 metrostansiya tikilib. Yəni hər 5 ildə 2 stansiya. Nəzərə alaq ki, başlanğıc işləri üçün zaman daha çox tələb olunur. Üstəgəl bu işlər həmin dövrün texnikası ilə görülüb.

Bəs müstəqillik dövründə - qazandığımız pulların hamısının bizə qaldığı, milyardlarla büdcəyə malik olduğumuz və müasir texnikaların olduğu bir dövrdə nə qədər stansiya istifadəyə vermişik?

Cavab utandırıcıdır: 31 ildə cəmisi 8 stansiya. Onun da 2-si köməkçi ("Cəfər Cabbarlı" və "Memar Əcəmi") stansiyalarıdır. Yəni hər 4 ildə 1 stansiya.

Sovet dövründə tikilən metropoliten xətlərinin uzunluğu 25,8 km olduğu halda, müstəqillik dövründə bu göstərici 13 km olub. Hazırda xətlərin uzunluğu 38,8 km-dir. Bakı metropoliteni Dövlət Proqramı çərçivəsində yollarının ümumi uzunluğunu 119,1 km-ə, stansiyaların sayını isə 76-ya çatdırmağı planlaşdırır. Yəni 73 ilə tikdiyi 38,8 km-lik yolun uzunluğunu və 26 stansiyanın sayını 3 dəfə artırmalıdır..."

Qeyd edək ki, oxşar fikirlər cəmiyyətdə mütəmadi olaraq səslənir. Lakin Zaur Hüseynovun rəhbərlik etdiyi "Bakı Metropoliteni" QSC həmin iradlara münasibət bildirməməyi, ictimai tənqidlər qarşısında səssiz qalmağı üstün tutur.

Bundan başqa, son illərdə istifadəyə verilən metrostansiyaların bəziləri ilə bağlı da cəmiyyətdə tənqidi fikirlər hakimdir. Məsələn, bir neçə ay öncə "Xocəsən" stansiyasına gedən yolun piyadalar üçün əlçatanlığı müzakirə mövzusuna çevrilib. Bir sıra nəqliyyat səhifələri metro stansiyalarının tikintisi zamanı piyadaların rahatlığı, fiziki məhdudiyyətli və uşaq arabası ilə hərəkət edən insanların maneələrlə üzləşə biləcəyini deyib. İnşaat mühəndisi Azər Axundov "ölkə.az"a açıqlamasında bildirib ki, yerüstü stansiya dedikdə, ilk ağla gələn şey stansiyaya girişin rahat şəkildə olmasıdırsa, bunu "Xocəsən" stansiyası haqda demək təəssüf ki, mümkün deyil. Sitat: "Belə ki, yolun digər tərəfindən gələn sərnişinlər öncə yerüstü piyada keçidi ilə avtomobil yolunu keçməli, daha sonra isə stansiyaya girməlidir. Ərazinin relyefinə görə stansiya platformasının stansiya girişindən daha yuxarıda olması başa düşüləndir (platformaya çıxış 2 eskalatorla təmin edilir). Lakin stansiyaya girmək üçün sərnişinləri yerüstü keçid və pilləkənlərdən istifadə etməyə məcbur etmək doğru qərar deyil. Ümumiyyətlə, şəhər mühitində bu cür yerüstü keçidlər olmamalıdır. Bəlkə də, gənc insanlar üçün yerüstü keçiddən keçib düşmək problem olmayacaq, lakin yaşlı nəsil, uşaq arabası ilə gəzən valideynlər və digər kateqoriyadan olan sərnişinlər var ki, onlar üçün bu keçidi keçmək çox çətin olacaq. Bu keçidin yerinə eynisəviyyəli piyada zolağı çəkmək və hərəkəti svetoforla tənzimləmək olardı... Əgər hər hansı bir stansiyaya digər nəqliyyat növləri ilə effektiv bağlantı verilmirsə, bu stansiyanın mənası itir. "Xocəsən" stansiyası ətrafında həm dəmir yolu, həm də avtomobil yolu var. Bu ərazidə kiçik bir nəqliyyat mübadilə məntəqəsi yaratmaq olar və gələcəkdə metrodan düşən sərnişinləri həm elektrik qatarına, həm də avtobuslara yönəltməklə sürətli hərəkəti təmin etmək mümkündür".

Onu da deyək ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin açıqladığı Bakı şəhərinin Baş Planına əsasən, qarşıdakı illərdə "28 May" stansiyası metro şəbəkəsinin mühüm əhəmiyyətə malik mərkəzi qovşağı olaraq qalacaq. 2027-ci ilədək "28 May"-"Cəfər Cabbarlı" keçid stansiyasında yaşıl və qırmızı xətlərinin bir-birindən ayrılması və yeni dəstəkləyici infrastrukturun yaradılması planlaşdırılır. Həmçinin, 2040-cı ilədək metro xətləri şəbəkəsinin ümumi uzunluğunun hazırki 36,7 km-dən 76.2 km-ə, stansiyaların sayının isə 25-dən 51-ə çatdırılması nəzərdə tutulur.

Ümid edək ki, bu hədəflərə çatmaq mümkün olacaq...

***Toğrul Əliyev***

# Kövrək anlaşma pozula bilər: Qarşıdurmanın bir addımlığındayıq

***Ermənistan silahlı qüvvələrinin bölmələri, eləcə də, Qarabağ ərazisində qalan qanunsuz erməni silahlıları təxribat xarakterli əməllərini davam etdirir. Belə ki, martın 8-i saat 21:30-dan martın 9-u saat 04:15-dək Ordumuzun Azərbaycan-Ermənistan şərti sərhədində və Qarabağ iqtisadi rayonunda yerləşən mövqeləri 23 dəfə atəşə tutulub.***

Ordumuzun bölmələri tərəfindən bütün istiqamətlər üzrə adekvat cavab tədbirləri görülüb. Ermənistan silahlı qüvvələri mövqelərimizi sistematik atəşə tutmaqla Ordumuzu cavab atəşi açmağa təhrik edir və bununla da şərti sərhəddə fəaliyyət göstərən Avropa İttifaqının mülki missiyasının nümayəndələrində yanlış rəy formalaşdırmağa, eləcə də bölgədə süni gərginlik yaratmağa cəhd edir. Bir daha bildiririk ki, Ermənistan tərəfindən törədilə biləcək təxribatlara və bunun nəticəsində baş verəcək insan təlafatına görə bütün məsuliyyət rəsmi İrəvanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Qeyd edək ki, Rəsmi İrəvan da, Xarici İşlər Nazirliyi səviyyəsində bu təxribatlara siyasi-diplomatik don geyindirməyə çalışırlar. Belə ki, martın 8-də Ermənistan Xarici İşlər Nazirliyi növbəti dəfə Azərbaycana qarşı yalan və iftira dolu bəyanatla çıxış edib. Azərbaycan XİN Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycan əleyhinə 8 mart tarixli saxta və yalan dolu bəyanatına dair şərhində bildirilib ki, Ermənistanın 30 ilə yaxın bir dövrdə həyata keçirdiyi işğal siyasətini, habelə hal-hazırkı post-münaqişə dövründə Azərbaycana və azərbaycanlılara qarşı törətdiyi təxribatları ört-basdır etmək məqsədi daşıyır:



”Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bölmələrinin müşahidə kameraları tərəfindən qeydə alınmış və Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən nümayiş etdirilmiş video çəkilişdə açıq-aşkar erməni silahlı qüvvələrinin nəqliyyat vasitələrinin Xankəndi-Xəlfəli-Turşsu torpaq yolundan növbəti dəfə hərbi məqsədlər üçün istifadə etməsi faktının Ermənistan tərəfindən təkzib olunması riyakarlıqdır. Son 30 ildə beynəlxalq hüququn norma və prinsiplərini və 2020-ci il müharibəsindən sonra 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanat çərçivəsində üzərinə götürdüyü əksər öhdəlikləri kobud şəkildə pozan Ermənistanın torpaqlarını işğal etdiyi Azərbaycanı öhdəlikləri yerinə yetirməməkdə ittiham etməsi tamamilə əsassızdır. Eynilə, Beynəlxalq Ədalət Məhkəməsinin sonuncu qərarını təhrif etməyə və arzularını reallıq kimi təqdim etməyə çalışan Ermənistanın guya Azərbaycanın qərarı yerinə yetirməkdən boyun qaçırmasını iddia etməsi qəbuledilməzdir. Ümumiyyətlə, müstəqillik qazanan dövrdən beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycanın beynəlxalq tanınmış ərazilərinə qarşı hərbi təcavüz və kütləvi qırğınlar törədən, işğal altında olan şəhərləri və yüzlərlə kəndi viran qoyan, azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirən, yüz minlərlə əhalini öz doğma torpaqlarından qovan, beynəlxalq təşkilatların bölgəyə missiyalarına maneçilik törədən Ermənistanın ərazilərimiz 2020-ci ildə işğaldan azad olunandan sonra beynəlxalq hüquqa istinad etməsi, beynəlxalq təşkilatlara üz tutması, habelə Azərbaycanın guya bölgənin erməni sakinlərinə qarşı “etnik təmizləmə” və “soyqırım” həyata keçirməyə hazırlaşdığı iddiası absurddur”.

“Ermənistan Xarici İşlər Nazirliyinin guya Azərbaycan ərazilərində Ermənistan Silahlı Qüvvələrinin mövcud olmaması iddiasına gəldikdə bir daha xatırladırıq ki, Ermənistan nəinki indi, 30 ilə yaxın işğal dövründə belə Azərbaycan ərazilərini işğal etmədiklərini sübut etməyə çalışırdı. Halbuki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı faktı, bütün qüvvələrini Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirdiyi, idxal etdiyi əsas hərbi texnikanı Azərbaycan ərazisinə ötürdüyü, bütün qüvvələrin Ermənistan müdafiə nazirinə tabe olduğu, bir çox hərbçilərə qarşı məhz Ermənistan ərazisində cinayət işi açıldığı və həbs olunduqları bəllidir. Bununla yanaşı, Ermənistan siyasi rəhbərliyinin erməni qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmadığını etiraf etdiyi məlumdur. Habelə Qüvvələrin 2022-ci ilin sentyabr ayında çıxarılacağı bəyan edilsə də, bunun hələ də baş vermədiyi bəllidir. Azərbaycan ərazisindən hansı qüvvələrin çıxarılması barədə öhdəliyə gəldikdə isə bir daha xatırladırıq ki, 10 noyabr 2020-ci il bəyanatının 4-cü bəndinə əsasən, məhz bütün erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması nəzərdə tutulur və bu məsələdə manipulyasiyalar yolverilməzdir. Ermənistan tərəfinin Azərbaycana qarşı təcavüz siyasətinin və qeyri-qanuni əməllərinin qarşısının alınması məqsədilə, Laçın yolunun başlanğıcında sərhəd-nəzarət keçid məntəqəsi yaradılması labüddür. Azərbaycan bundan sonra da öz milli maraqlarının və təhlükəsizliyinin müdafiəsi məqsədilə bütün lazımi tədbirləri görməyə davam edəcək”-deyə XİN bəyan edib.

Politoloq Qabil Hüseynli “Unikal”a açıqlamasında deyib ki, Qarabağda baş verən son hadisələrdə Rusiyanın və İranın barmağı olduğunu düşünür. O bildirib ki, Rusiya və İranın məqsədi Azərbaycanın daxili sabitliyini pozmaqdır: ”Baş verən proseslərdə ”baş rejissor” rolunu rus sülhməramlıları adlanan qüvvələr oynayır. Biz onların alternativ yolla yanacaq və silah-sursat daşıdıqlarını sübut etmişik. Son toqquşma hadisəsi zamanı da məqsəd daşıma işlərinə rəhbərlik edən ”UAZ” markalı maşının yoxlanılması idi. Birinci atəşi ermənilər açdı. Onlar cavab atəşi ilə məhv edildilər. Demək olar ki, həmin vəziyyət davam edir. Həmçinin onu da xatırladaq ki, ermənilər danışıqlar zamanı öz iddialarını artırıblar”.

Q. Hüseynli qeyd edib ki, son hadisələr zamanı Azərbaycan üçün ən xoşagəlməz cəhət Rusiyanın ölkəmizi qınaması olub: ”Halbuki, onlar öz sülhməramlılarını qınamalı idilər. Azərbaycan Müdafiə Nazirliyi də bu barədə sülhməramlılara xəbərdarlıq edib. Alternativ yola nəzarət edən və oradan yüklərin daşınmasını təmin edən də məhz sülhməramlılar idi. Rusiyalı politoloqlar isə bu məsələdə Azərbaycanı günahkar çıxaran fikirlər söylədilər. Bütün bunlar onu göstərir ki, Rusiya Qarabağdan kart kimi istifadə edir. O, bu kartı açıq oynamaqla Qərbin bu regiona təsirinin qarşısını almağa çalışır. Cənubi Qafqaz Rusiya üçün açar rolunu oynayır. Rusiya dövlətinin rəsmi mövqeyini müdafiə edən politoloqlar bildirir ki, onlar bu regiondan çıxıb getməyəcəklər. Onlar Avropa İttifaqının iştirakı ilə keçirilən görüşlərdə əldə olunan razılıqları pozmağa çalışırlar. Çox təhlükəli proseslər gedir. Ermənilər sülh müqaviləsindən danışsalar da, əslində vaxt udmağa çalışırlar”, - o deyib.

Milli Cəbhə Partiyasının sədri, deputat Razi Nurllayev isə bizimlə söhbətində deyib ki, toqquşmalar hər zaman baş verə bilər, amma burada Azərbaycanın günahı yoxdur: “Əgər Ermənistan Qarabağa silah daşıyırsa, Rusiya sülhməramlıları onlara kömək edirsə, qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri səngər qazıb mühəndis-istehkam qurğuları qururlarsa, demək ki, müharibəyə hazırlaşırlar. Onlar Azərbaycana reinteqrasiya etmək fikrindən uzaqdırlar. Ona görə də Azərbaycan onları cəzalandırmaq və təhlükəsizliyi təmin etmək üçün addımlar ata bilər. Qeyd etmək lazımdır ki, ermənilər daim təxribatlar törədirlər. Bu təxribatlar daha genişmiqyaslı toqquşmalara gətirib çıxara bilər. Təbii ki, burada uduzan tərəf ermənilər və separatçılar olacaq”.

***M.İbrahimli***



## ÜST rəhbəri Azərbaycan Prezidentinə təşəkkür etdi

***”Səhiyyəyə investisiya dayanıqlı inkişafa da təsirini göstərir. Biz bunu insan hüquqlarının müdafiəsi istiqamətində də istifadə edə bilərik”.***

Bu sözləri Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus X Qlobal Bakı Forumunun açılış mərasimində videokonfrans vasitəsilə çıxışı zamanı deyib.

ÜST-ün baş direktoru forumun səmərəli olacağına və müzakirə olunan problemlərin həllinə müsbət təsir göstərəcəyinə əminliyini ifadə edib. Forumun təşkilinə görə Azərbaycanın Prezidentinə və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkürünü bildirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə martın 9-da “Dünya bu gün: Çağırışlar və ümidlər” mövzusunda işə başlayan Forumda bir çox ölkənin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri qatılıblar. Forumda 4 Prezident, 2 Baş nazir, 6 spiker və nazir, BMT-nin 5 qurumunun rəhbərlikləri, 25 sabiq prezident, 21 sabiq baş nazir, 23 ölkənin xarici işlər nazirlərinin müavinləri olmaqla, ümumilikdə 61 ölkədən 360-dək nümayəndə iştirak edir.

## "Azərbaycan Avropa İttifaqının vacib və etibarlı tərəfdaşıdır" - Levits

***”Dünən Azərbaycan Prezidenti İlham Əliyevlə görüşüm oldu. Görüşdə biz yüksək səviyyədə olan qarşılıqlı iqtisadi və siyasi əlaqələri müzakirə etdik”.***




Bunu Latviya Prezidenti Egils Levits X Qlobal Bakı Forumunda jurnalistlərə açıqlamasında deyib. O qeyd edib ki, Azərbaycan Avropa İttifaqının vacib və etibarlı tərəfdaşıdır:

“Xüsusilə də enerji təchizatı məsələsində Azərbaycanın rolunu qeyd etməliyəm. Biz Latviya ilə Azərbaycan arasında əlaqələrimizin inkişafı üçün addımlar atmağa davam edəcəyik. Avropa İttifaqı enerji təhlükəsizliyimizin təminatı üçün yeni təchizatçılar axtarır. Avropa İttifaqı ilə Azərbaycan arasında bu istiqamətdə əlaqələr yüksək səviyyədədir”.



# Prezident Şahzadə Turki Al Faysal Al Saudu qəbul etdi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Səudiyyə Ərəbistanının Kral Faysal İslam Araşdırmalar Mərkəzinin İdarə Heyətinin sədri Şahzadə Turki Al Faysal Al Saudu qəbul edib.***

"Unikal" xəbər verir ki, görüşdə X Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunuldu, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dünyada nüfuzunun ildən ilə artdığı vurğulandı. Budəfəki Forumda da daha çox sayda ölkələrin və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı bunun göstəricisi kimi dəyərləndirildi.

Kral Faysal İslam Araşdırmalar Mərkəzinin İdarə Heyətinin sədri X Qlobal Bakı Forumunun yüksək səviyyədə təşkil edildiyini vurğuladı.

Dövlətimizin başçısı Şahzadə Turki Al Faysal Al Sauda işğaldan azad olunmuş ərazilərimizə dünən etdiyi səfərə görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyü məsələsində, o cümlədən 44 günlük Vətən müharibəsi zamanı və müharibədən sonrakı dövrdə də Səudiyyə Ərəbistanının ölkəmizə göstərdiyi siyasi-mənəvi dəstəyi yüksək qiymətləndirdi.

Şahzadə Turki Al Faysal Al Saud Azərbaycanın işğaldan azad olunmuş ərazilərində apardığı genişmiqyaslı bərpa-yenidənqurma işləri ilə bağlı dövlətimizin başçısını təbrik etdi. Qonaq işğaldan azad olunmuş ərazilərimizə səfərinin ona dərindən təsir etdiyini bildirdi.

Söhbət zamanı Azərbaycanla Səudiyyə Ərəbistanı arasında dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulandı və əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

# Azərbaycan İrana nota verdi

**XİN Azərbaycan Respublikasının vətəndaşı Fərid Səfərlinin vəziyyətinə aydınlıq gətirilməsi məqsədilə, İranın ölkəmizdəki səfirliyinə nota ünvanlayıb.**

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin yerli media nümayəndələrinin sorğusuna cavabında bildirib.

Diplomat qeyd edib ki, "Azərbaycan Respublikasının vətəndaşı, Almaniyanın Yena Universitetinin tələbəsi 1997-ci il təvəllüdlü Fərid Qabil oğlu Səfərlinin 20 fevral tarixində İran İslam Respublikasına səfərə getdiyi, lakin 4 mart tarixindən etibarən ondan xəbər alınması mümkün



olmadığı barədə məlumat yayılıb. Məsələ ilə bağlı müraciət Xarici İşlər Nazirliyinə 9 mart 2023-cü il tarixində daxil olub.

Sözügedən məlumata aydınlıq gətirilməsi məqsədilə, Xarici İşlər Nazirliyi müvafiq olaraq İranın ölkəmizdəki səfirliyinə nota ünvanlayıb və hal-hazırda qarşı tərəfdən cavab gözləyir.

Azərbaycan Respublikasının vətəndaşı Fərid Səfərlinin yerinin müəyyən edilməsi istiqamətində müvafiq tədbirlər və araşdırma işləri davam edir. Məsələ ilə bağlı ictimaiyyətə əlavə məlumat veriləcəkdir.

Azərbaycan Respublikasının vətəndaşlarına bir daha xatırlatmaq istərdik ki, 27 yanvar 2023-cü il tarixində ölkəmizin İrandakı səfirliyinə qarşı baş vermiş terror hücumundan sonra, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ölkəmizin vətəndaşlarına zəruri olmadığı təqdirdə İran İslam Respublikasına səfər etməməyi, səfər edənlərin isə yüksək ehtiyatlılıq nümayiş etdirmələri barədə səyahət xəbərdarlığı yayıb".

# X Qlobal Bakı Forumunda iqlim dəyişikliyi, qida və nüvə təhlükəsizliyi müzakirə olunub

***Bakıda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Dünya bu gün: Çağırışlar və Ümidlər" mövzusunda X Qlobal Bakı Forumu çərçivəsində "Meqatəhdid dövrü: İqlim dəyişikliyi, Qida təhlükəsizliyi, Nüvə təhlükəsizliyi" adlı panel keçirilib.***

P panelin moderatoru İrqçilik əleyhinə Avropa Şəhərlər Koalisiyasının Prezidenti Benedetto Zaççiroli olub.

Timor-Leste Demokratik Respublikasının Prezidenti, 1996-cı il Nobel Sülh Mükafatı laureatı Xose Ramos Horta pandemiya və Ukrayna müharibəsindən danışıb, istehlak qiymətləri artmaqda olduğunu söyləyib. O, Ukrayna ilə Suriya və Yəmənə yardım arasındakı fərqi etik saymayıb.

BMT-nin Qida və Kənd Təsərrüfatı Təşkilatının böyük elmi işçisi İsmahan Eluafi iqlim dəyişikliyi və qida probleminin bəşəriyyət üçün real təhlükə olduğunu vurğulayıb.

"Liberal International" təşkilatının Prezidenti, Mərakeşin sabiq ətraf mühit naziri (2013-2017-ci illər) və İqlim Dəyişikliyi üzrə xüsusi nümayəndəsi (2015-2017) Hakima El Haite 1,5 milyard insanın su çatışmazlığı ilə üzləşdiyini söyləyib: "Heç kim dəniz suyunun turşulaşmağından danışmır. Bu da təhlükədir. Ona görə də milyonlarla insanlar su ilə bağlı münaqişə ilə üzləşib". Qazaxıstanın informasiya və sosial inkişaf naziri Darxan Kidirali Xəzəri ölkəsinin nüvə təhlükəsizliyi, iqlim dəyişikliyi, ərzaq təhlükəsizliyi sahəsində töhfələrindən danışıb, Xəzərin səviyyəsinin aşağı düşməsinə qarşı sahilyanı dövlətlərin birgə addımlar atmasını vacib hesab edib.

Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev iqlim dəyişikliyi və Azərbaycanda su problemindən danışıb, regional platformanın yaradılmasını zəruri sayıb.

Rumıniya Baş nazirinin dövlət müşaviri Laslo Borbeli problemlərin həlli üçün səyləri birləşdirməyi zəruri sayıb.

# Laçın-Xankəndi yolundan BQXK-nın maşınları keçid edib



***Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə faydalı qazıntı yataqlarının qanunsuz istismarına etiraz olaraq aksiyanın keçirildiyi Laçın-Xankəndi yolundan mülki avtomobillərin sərbəst keçidi davam edir.***

Səhər saatlarından Xankəndidən gəlib, Laçına gedən Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) avtomobilləri geriyə, Xankəndiyə qayıdıb. Avtomobillərdə erməni əsilli sakinlər də olub.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:1800

# Azərbaycanda daha 6 nəfər COVID-19-a yoluxub

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 6 yeni yoluxma faktı qeydə alınıb, 41 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 828 825 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 818 497 nəfər müalicə olunaraq sağalıb, 10 138 nəfər vəfat edib, aktiv xəstə sayı 190 nəfərdir. Ölkədə son sutka ərzində 1 583, hazırkı dövrədək isə 7 537 871 test aparılıb.

# MEDİA-dan "Freedom House"un son hesabatı ilə bağlı bəyanat

***Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) "Freedom House" təşkilatının son hesabatı ilə bağlı bəyanat yayıb.***

"Unikal" xəbər verir ki, bəyanatda deyilir:

"Freedom House" beynəlxalq qeyri-hökumət təşkilatı açıqladığı son hesabatında Azərbaycanda medianın vəziyyəti ilə bağlı reallıqdan uzaq, qərəzli münasibətini bir daha nümayiş etdirib.

Azərbaycanın informasiya məkanı haqqında səsləndirilmiş qərəzli münasibətə cavab olaraq bəyan edirik ki, "Media haqqında" Azərbaycan Respublikasının Qanununda hesabatda iddia olunduğu kimi xarici onlayn platformalara yerli hüquqi şəxs kimi qeydiyyatdan keçmək öhdəliyi qoyulmamışdır.

Belə ki, Qanunun müddəalarına əsasən Azərbaycan Respublikasında xarici media subyektlərinin filial və nümayəndəliklərinin açılması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir və bunun üçün həmin subyektlərin yerli hüquqi şəxs kimi qeydiyyatdan keçməsi heç bir halda tələb olunmur.

Xüsusilə vurğulanmalıdır ki, Qanunun müddəaları video pay-




laşım platformaları, internet televiziyaları və bu kateqoriyadan olan digər fəaliyyət növlərinə qətiyyən şamil edilmir, heç bir halda onların fəaliyyətini tənzimləməyi nəzərdə tutmur.

Beynəlxalq yanaşma nəzərə alınmaqla, media sahəsində baş verən qanunazidd hallara məhkəmə tərəfindən hüquqi qiymət verilməsi nəzərdə tutulmuş, dövlət orqanlarının bu istiqamətdəki səlahiyyətləri tamamilə məhdudlaşdırılmışdır. Heç bir dövlət orqanının media subyektlərinin fəaliyyətini dayandırmaq və ya onların fəaliyyətinə xitam vermək yaxud hər hansı şəkildə müdaxilə etmək hüququ yoxdur. Bu sahədə yarana biləcək bütün hüquqazidd hallar məhkəmələrdə tərəflərin bərabərliyi prinsipi əsas götürülməklə həll edilir.

Qanun "media sahəsində dövlət senzurası, habelə bu məqsədlə dövlət orqanlarının (qurumlarının) və ya vəzifələrin yaradılması və maliyyələşdirilməsi qadağandır" deməklə senzuranı tamamilə istisna edir. Əlavə olaraq, media sahəsində fikir müxtəlifliyi və fəaliyyət azadlığının təmin edilməsini dövlətin vəzifəsi olaraq müəyyənləşdirir.

Həmçinin, Qanun jurnalistlərin ictimaiyyəti məlumatlandırmaq sərbəstliyini təmin etmək məqsədilə informasiyanın əlçatanlığının və operativliyinin təmin edilməsi üçün dövlət orqanları üzərinə media nümayəndələrinə hər hansı fakt və ya hadisə barədə ətraflı məlumat vermək öhdəliyi qoyur, jurnalistlərin peşəkar fəaliyyətinə müdaxiləni yolverilməz hesab edir.

Azərbaycan həqiqətlərini təhrif etməyə davam edən, münasibət bildirərkən rəsmi mənbələrlə əlaqə saxlamayan, dəfələrlə bəyan edilmiş dialoq təşəbbüslərimizi cavablandırmayan və nəhayət, öz ərazi bütövlüyünü bərpa edən ölkəni "işğalçı" adlandıran təşkilatın hesabatı hüquqi və məntiqi baxımdan tamamilə əsassız və etibarsız olmaqla yanaşı, beynəlxalq hüququn norma və prinsiplərinə də ziddir".

# "Ermənistan öz gələcəyini qurmaq şansını əldən buraxıb" - İlham Əliyev

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə martın 9-da "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda X Qlobal Bakı Forumu işə başlayıb.***

Prezident İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.X Qlobal Bakı Forumunu açıq elan edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin sözü Azərbaycan Prezidenti İlham Əliyevə verdi.

Dövlətimizin başçısı Forumun açılış mərasimində çıxış edib.Ölkə başçısı çıxışı zamanı Ermənistanla Azərbaycan arasındakı münazibətlərlə bağlı bir sıra mühüm məqamlara toxunub: "Bu gün biz soyuq müharibənin bitməsindən sonra bu gündək baş vermiş bəlkə də ən ciddi Şərq-Qərb qarşıdurmasının şahidi oluruq. Qoşulmama Hərəkatı körpülərin salınmasında, münaqişələrin həllində yeni yanaşmaların formalaşdırılması və Qoşulmama Hərəkatının təməl prinsiplərinin - Bandunq Prinsiplərinin təmin edilməsində mühüm rol oynaya bilər və oynamalıdır. Həmin prinsiplər - sülh, əməkdaşlıq, ərazi bütövlüyünə və suverenliyə hörmət, habelə sərhədlərin toxunulmazlığından ibarətdir.

Münaqişələrin həllinə gəldikdə, bu mövzu Forum çərçivəsində geniş şəkildə müzakirə ediləcəkdir. Mən isə öz təcrübəmizlə bağlı fikirlərimi bölüşə bilərəm. Münaqişələrin həlli iki cür olur - dinc yolla və qeyri-dinc yolla. Biz Ermənistanla münaqişəni dinc yolla həll etməyə çalışırdıq. Baxmayaraq ki, Ermənistan tərəfindən işğal Azərbaycanda humanitar fəlakətə səbəb olmuşdur. İşğal nəticəsində bir milyondan artıq azərbaycanlı yurdsuz qalmış, qaçqın və məcburi köçkünə çevrilmişdir.

Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparıb, onları Qarabağdan sürgün salıb və bir milyon azərbaycanlıya əzab-əziyyət verib. Münaqişəni dinc yolla həll etmək və erməni qoşunlarının Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrini icra etmək üçün Ermənistanı inandırmaq cəhdlərimizə baxmayaraq, Ermənistan, sadəcə, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymadı və beynəlxalq hüquqa, beynəlxalq ictimaiyyətə hörmətsizlik göstərdi. 1992-ci ildə münaqişə yarandıqdan sonra ATƏT Minsk qrupunu təsis etdi. Lakin əfsuslar olsun ki, 28 il ərzində Minsk qrupu hər hansı nəticəyə nail olmadı. Danışıqlar prosesinin sonunda bizə belə görünürdü ki, onlar, sadəcə, vəziyyəti dondurmaq istəyirdilər. Onlar bu münaqişəni daimi dondurmaq istəyirdilər. Lakin biz bununla razılaşmadıq. Biz özünümüdafiə hüququmuzdan, BMT-nin Xartiyasından, xüsusən də onun 51-ci maddəsindən istifadə edərək düzgün olanı etdik. Biz öz ərazilərimizi güc tətbiq etməklə azad etdik. Bu, bizim legitim hüququmuz idi.

Beləliklə, çalışdıq ki, dinc yolla həll edək. Bizdə alınmadı, ona görə ki, erməni tərəfi konstruktiv yanaşma göstərmədi. Biz isə güc tətbiq etdik və öz ərazimizi azad etdik. Hazırda, təxminən iki il yarım vaxt ötür və biz 10 min kvadratmetrlərlə ölçülən və tamamilə dağıdılmış böyük ərazini yenidən tikirik. Yeri gəlmişkən, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nümayəndələri Şuşaya səfər ediblər və orada panel müzakirələr aparıblar. Onlar Füzulidə və Şuşada dağıntıları görüblər və bu, həqiqətən də barbarlıq, urbisid, kultursid, ekosid əlamətidir. Bunu edən bizim qonşularımız olub. Azərbaycan xalqının qisas almaq üçün mənəvi hüququ var və mən bunu anlayıram. Lakin mənim mesajım döyüş meydanında qisası almaqla həyata keçdi.

Biz ermənilərdən fərqli olaraq hər hansı hərbi cinayət törətmədik. Biz ermənilərdən fərqli olaraq soyqırımı törətmədik. Biz döyüş meydanında qisas aldıq. Beləliklə, hazırda sülh üçün vaxt yetişib. Bununla belə, 2020-ci ilin noyabrında müharibə bitdikdən dərhal sonra biz sülh danışıqlarına başlamaq üçün təşəbbüs irəli sürdük və Ermənistanla sülh müqaviləsinin əsasını təşkil edəcək beş məşhur prinsipi təqdim etdik. Ümid edirik ki, vasitəçiliyə cəhd göstərən beynəlxalq iştirakçılar Ermənistanı şansı əldən buraxmamaqda dilə gətirəcəklər. Onlar müstəqil ölkə olmaq şansını itiriblər. Onlar tamamilə asılı olan, digər ölkənin və hazırda, ola bilsin, digər ölkələrin müstəmləkəsinə çevriliblər. Beləliklə, onlar bizə qarşı təcavüz səbəbindən, həqiqətən müstəqil olmaq, öz gələcəyini qurmaq şansını əldən buraxıblar.



Beləliklə, hazırda onlar üçün öz qonşuları ilə qonşu kimi davranmaq şansı yaranıb. Bir sözlə, biz sülh istəyirik. Biz hər hansı digər müharibəni istəmirik. Hesab edirik ki, sülhə nail olmaq olar. Ötən ilin oktyabrında Azərbaycan ilə Ermənistan arasında razılaşdırılmış məsələlər, xüsusən də, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət əslində onu göstərir ki, sülhə nail olmaqda maneə yoxdur.

Azərbaycandakı erməni azlığına gəldikdə, Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkədir. Azərbaycanda azlıqların hüquqları Konstitusiyamız tərəfindən qorunur. Azərbaycanda real vəziyyətlə tanış olan hər kəs deyə bilər ki, Azərbaycan yüksək dini və etnik dözümlülüyü ilə seçilən, müxtəlif etnik qrupların, konfessiyaların nümayəndələrinin dinc və ləyaqətli şəkildə yaşadığı ölkədir. Bir sözlə, əminəm ki, Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərin həyatı işğal dövründən fərqli olaraq daha yaxşı olacaq. Hər münaqişənin öz tarixi, öz dinamikası və sonu var. Lakin vacib odur ki, ölkələr arasında mübahisələr beynəlxalq hüquq əsasında həll olunsun, onların ərazi bütövlüyü və suverenliyi güc hesabına dəyişdirilməsin. Bu, Azərbaycanın mövqeyidir. Bu mövqe yalnız bizim məsələmizə deyil, dünyadakı bütün münaqişələrə şamil edilir. Biz bu mövqeyi açıq şəkildə bəyan edirik".

# Səhiyyə Nazirliyinin bu səlahiyyəti TƏBİB-ə verildi




***"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin fəaliyyətinin təşkili məqsədilə onları "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada zəruri iş, xidmət, mal-material və digər ləvazimatla təmin etmək üçün Səhiyyə Nazirliyinin tabeliyində olan "İnnovasiya və Təchizat Mərkəzi" əmlakı ilə birlikdə TƏBİB-in tabeliyinə verilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev "Səhiyyə sahəsində təchizat və təminatla bağlı fəaliyyətin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" fərmanda dəyişiklik edib.

Fərmanın qeyd edilən hissəsi 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

# XİN-dən Tərtərdəki mina partlayışı ilə bağlı paylaşım




***"Ermənistanın mina terroru azərbaycanlıların həyatına son qoymağa davam edir".***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan XİN-in rəsmi tviter hesabında edilən paylaşımda deyilir.

"Bu gün azərbaycanlı mülki şəxs minanın partlaması nəticəsində ağır yaralanıb. Nəticədə 2020-ci il müharibəsindən sonra mina səbəbindən ölən və yaralananların sayı 284 nəfərə çatıb. Beynəlxalq tərəfdaşlar Ermənistanın terroruna biganə qalmamalıdırlar", - deyə paylaşımda qeyd olunub.

Xatırladaq ki, bu gün 13:00 radələrində Tərtər rayonunun Çaylı kəndi ərazisindəki Gendərə deyilən yerdə rayonun Həsənqaya kənd sakini 1989-cu il təvəllüdlü Yaquar Hadıyev piyada əleyhinə minaya düşüb.

# Vüqar Əhmədov vətəndaşları qəbul edəcək

***"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov martın 10-da saat 10:00-da Hacıqabul şəhərində Hacıqabul və Şirvan rayonlarından olan vətəndaşları qəbul edəcək.***

"Unikal" xəbər verir ki, qəbul Hacıqabul şəhəri, İsmət Qayıbov küçəsində yerləşən "Azərişıq" ASC-nin Hacıqabul Elektrik Şəbəkəsinin inzibati binasında keçiriləcək.

Qəbul Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşları qəbulu cədvəlinə əsasən baş tutacaq.

Qəbulda iştirak etmək istəyən şəxslər Hacıqabul Elektrik Şəbəkəsinə və ya "Azərişıq" ASC-nin 199 çağrı mərkəzinə, onlayn isə info@azerishiq.az elektron poçt ünvanına müraciət etməklə qeydiyyatdan keçə bilərlər.

Vətəndaşların diqqətinə çatdırırıq ki, qəbulda müraciətlər yalnız "Azərişıq" ASC-nin fəaliyyət istiqamətinə aid məsələlərlə bağlı olmalıdır.

Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq, qəbulda peyvənd və ya immun sertifikatı, eləcə də əks-göstəriş sertifikatı olan şəxslər iştirak edə bilərlər.





# Azərbaycan-NATO hərbi əməkdaşlığı müzakirə olunub

***Azərbaycan-NATO hərbi əməkdaşlığının inkişaf perspektivləri müzakirə olunub.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Bildirilib ki, martın 9-da müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə rəsmi səfərdə olan NATO-nun Quru Qoşunları Komandanlığının qərargah rəisi general-leytenant Mustafa Oğuz ilə görüşüb.

Baş Qərargah rəisi qonağı salamlayaraq Azərbaycan ilə NATO arasında əlaqələrin inkişaf etdiyini, habelə Azərbaycan Ordusunun nümayəndələrinin NATO-nun müxtəlif proqramları çərçivəsində fəal iştirakını qeyd edib.

Görüşdə NATO-nun Əməliyyat İmkanları Konsepsiyası çərçivəsində Şimali Atlantika Alyansının bölmələrimizin hazırlığına verdiyi töhfə yüksək dəyərləndirilib, həmçinin mövcud və yarana biləcək təhdidlərə qarşı birgə fəaliyyət istiqamətləri müzakirə edilib.

General-leytenant M.Oğuz ölkəmizə səfərindən məmnunluğunu ifadə edib, Azərbaycan Ordusunun hərbi qulluqçularının NATO ilə tərəfdaşlıq çərçivəsində bütün sahələrdə fəaliyyətini, o cümlədən sülhməramlı missiyalarda nümayiş etdirdiyi peşəkarlığını yüksək qiymətləndirib. Sonda NATO ilə əməkdaşlığın müxtəlif sahələrində inkişaf perspektivləri müzakirə edilib.

# Zəngilanda ilk imtahan keçiriləcək

***Martın 12-də Zəngilan rayonu, Ağalı kənd tam orta məktəbində ilk buraxılış imtahanı keçiriləcək.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib.

Qeyd edək ki, Dövlət İmtahan Mərkəzi tərəfindən 12 mart 2023-cü il tarixində tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçiriləcək. Bakı şəhərinin Nərimanov, Sabunçu, Xəzər, Səbail, Nəsimi, Nizami rayonlarında, Gəncə (II zona), Naxçıvan, Mingəçevir şəhərlərində, Abşeron, Samux, Daşkəsən, Ağstafa, Qazax, Tovuz, Sabirabad, Saatlı, İmişli, Qobustan, Zərdab, Şamaxı, İsmayıllı, Cəlilabad, Yardımlı, Lerik, Biləsuvar, Ağcabədi, Beyləqan, Füzuli, Ağdam, Zəngilan (Ağalı kəndi), Qax, Balakən, Zaqatala, Quba, Şabran, Qusar rayonlarında, həmçinin xüsusi məktəblərdə (internat məktəbləri, cəzaçəkmə müəssisələrində yerləşən məktəblərdə), tədrisi gürcü dilində olan məktəblərdə ümumtəhsil müəssisələrinin məzunları üçün buraxılış imtahanı keçiriləcək.

# "Qiymət artımının qarşısını almaq mümkün görünmür"

## Razi Nurullayev: "Həssas qrupların bahaçılıqdan çəkdiyi zülmü azaltmaq üçün onlara sosial paketlər təqdim olunmalıdır"

***Milli Cəbhə Partiyasının sədri, deputat Razi Nurullayev "Unikal"a müsahibə verib. O, Azərbaycanda pensiya yaşının azaldılmasından, insanların gənc yaşda bir sıra xəstəlikdən vəfat etməsindən, dərmanların qiymətinin baha, keyfiyyətinin isə aşağı olmasından və ərzaq məshullarının qiymətinin bahalaşmasından danışıb.***

***-Razi müəllim, Milli Məclisin ötən plenar iclasında ölkəmizdə pensiya yaşının azaldılması ilə bağlı təkliflərinizi səsləndirdiniz. Həmkarlarınızdan da bir neçə dəfə bu məsələni qaldıranlar olub. Necə düşünürsüz, yaxın vaxtlarda pensiya yaşı azaldıla bilərmi?***

-Pensiya yaşının azaldılması ilə bağlı məsələ sosial sifarişdir. Məsələnin bu şəkildə qabardılması, vətəndaşlar tərəfindən buna verilən reaksiya sübut etdi ki, pensiya yaşının azaldılması nəzərdən keçirilməlidir. Bu qədər önəmli olmasaydı, Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) illik məruzəsində bunu təklif kimi təqdim etməzdi. Pensiya yaşının azaldılması ilə bağlı Ombudsman tərəfindən təklif verilirsə, Milli Məclisdə qaldırılırsa, müxtəlif ekspertlər tərəfindən bunun önəmli olduğu deyilirsə, deməк ki, bu məsələnin ictimai müzakirəyə çıxarılmasına ehtiyac var. Ümid edirəm ki, hökumət bu çağırışları eşidəcək, bunun müzakirəsini təşkil edəcək və çıxış yolu tapılacaq. Hesab edirəm ki, pensiya yaşının azaldılması ilə bağlı müəyyən qərar olmalıdır. Bununla bağlı təklifim də var. Qadınların pensiyaya çıxması üçün son yaş həddi 60, kişilərdə isə 62 olsun. Qəbiristanlıqlarda apardığım monitorinq deməyə əsas verir ki, rəhmətə gedənlərin çoxu 57-62 yaş arasındadır. Uzunömürlü insanlar isə əsasən 1930-40-cı illərdə doğulanlardır. Yeni nəsil daha tez ürək, onkoloji, böyrək çatışmazlığı və digər xəstəliklərə tutulur. Belə desək, ötən əsrin ikinci əlli illiyində doğulan insanların həyat təhlükəsi daha çoxdur. Ona görə ki, xəstəliklər cavanlaşıb. 10-15 yaşlı uşağın onkoloji xəstə olduğunu görürsən. 30 yaşında olan birinin yüksək qan təzyiqi var. 30-40 yaşında insanların müəyyən hissəsi ürəyində stendlə gəzir. Azərbaycanda tibbi və sosial əlçatanlıq yüksək səviyyədə olmadığı üçün insanlar bu xəstəliklərə tutulur, sağalması isə çətin olur. İnsanların tibbi əlçatanlığı yüksək olmadığından vaxtında həkimə gedə bilmir, dərmanlarını ala bilmir, yol getdiyi yerdə və yaxud yatdığı zaman ürəyi dayanır. Bu cür insanların əksəriyyəti 50-60 yaş arasında olanlardır.

***-Qeyd etdiniz ki, qəbiristanlıqlarda apardığınız monitorinqə əsasən, cavan yaşında dünyasını dəyişənlərin sayı çoxalıb. Burada xəstəlikləri də qeyd etdiniz. Son illər xəstəliklərin cavanlaşması nə ilə bağlıdır?***

-Bəli, artıq insanlar gənc yaşlarından xəstəliklərə tutulur. Başqa cür desəm, xəstəliklər cavanlaşıb. Əvvəllər biri təzyiqim var deyəndə düşünürdün ki, həmin adam 70-80 yaşındadır. İndi 20 yaşı olan deyir təzyiqim var. Ola bilsin ki, iqlim dəyişikliyi buna təsiri edir. O cümlədən, yeməklərin keyfiyyəti aşağı düşüb, qida rasionu dəyişib. Yeməklər, paltarlar daha çox kimyəvi üsullarla hazırlanır. Təbii nə isə çox az qalıb. Bu səbəbdəndir ki, marketə daxil olanda xüsusi bir yer olur ki, orada orqanik məhsulların satıldığı yazılır. Həmin məhsulların qiyməti baha olur. Bir guşədə orqanik məhsullar yazılıbsa, deməк ki, qalanları orqanik deyil. Ən çox qida məhsulları insanların tez xəstələnməsinə səbəb olur. Hava da çox çirklənib, suyun keyfiyyəti aşağı düşüb, insan sıxlığı yaranıb. Əlavə olaraq dünyada xeyli kimyəvi maddələr hazırlanır. Ölkələr bir-biri ilə düşmənçilik edəndə insanların psixologiyasına və yaxud antropologiyasına uyğun müəyyən maddələr hazırlayıb, həmin regionda yayırlar. Təbii ki, bunların hamısı insanların sağlamlığına öz təsirini göstərir.

***-Qida məhsullarının keyfiyyəti ilə bağlı danışdınız. Deməк olar ki, hər ay ərzaq məhsullarının qiymətinin artdığını görürük. Bunun qarşılığında hansı sosial tədbirlər görülməlidir?***

-Qiymət artımının qarşısını almaq mümkün görünmür. Bunun səbəblərindən biri də çox məhsul istehsal edə bilməməyimizdir. İstehsal etdiyimiz ərzaq və ya digər məhsullar olsa da, onların tərkibində olan komponentlər 50 faizdən çoxdur. Bunu yerli məhsul saymaq olmaz. Ona görə ki, tərkibinə vurulan maddələr başqa ölkələrdən gətirilir. Təbii ki, həmin məhsulun qiymətini aşağı sala bilmərik. Ona görə də həssas qrupların bahaçılıqdan çəkdiyi zülmü azaltmaq üçün onlara sosial paketlər təqdim olunmalıdır. Məsələn, Almaniya kimi ölkədə xüsusi marketlər var ki, kasıblar gedib oradan özünə nələrsə alır. Güzəştə düşən məhsulları o mağazada satırlar, kasıblar da oradan ala bilir. Doğrudur, bizdə bunun həyata keçirilməsi bir az problem olar. Belə ki, varlı da gedib oradan alacaq. Bununla yanaşı, ünvanlı sosial yardım, müavinət alanlara, əlilliyi olan şəxslərə, çoxuşaqlı analara, kimsəsiz və yaşlılara müəyyən bir sosial paket qəbul oluna bilər. Həmin şəxslər ay ərazində güzəştli şərtlərlə ərzaq ala bilsinlər. Ancaq qiymətlərin aşağı salınmasına fokuslansaq, bu mümkün olmayacaq. Nə zaman bizdə bir dəfə qalxan qiymət aşağı düşüb?



***-Ombudsman illik məruzəsində dərman vasitələrinin keyfiyyətinə nəzarətin gücləndirilməli olduğu bildirilib. Zaman-zaman dərmanların həm qiyməti, həm də keyfiyyəti ilə bağlı Milli Məclisdə müzakirələr aparılıb. Bu məsələnin həlli istiqamətində hansı addımlar atılmalıdır?***

- Ölkəmizdə dərman preparatlarının keyfiyyətsizliyi və bahalığı ciddi problemdir. Siz də qeyd etdiyiniz kimi, parlamentdə bununla bağlı bir neçə dəfə məsələ qaldırılıb, amma nəticə görünmür. Dəfələrlə deyilib ki, bəzi dərmanların qiyməti Avropa ilə müqayisədə 3-4, Türkiyə ilə müqayisədə isə 8-12 dəfə bahadır. Aidiyyəti qurumlar bunu qəbul etmək istəmir, ya təkzib edir, ya da suallardan yayınırlar. Belə çıxır ki, burada qeyri-sağlam rəqabət mühiti var. Bəzi oliqarxlar bu məsələni öz xeyirlərinə özəlləşdirib və insanların cibinə girərək onların qəpik-quruşuna göz dikib. Bunun nəticəsində həssas qrupdan olan insanlar həkimin yazdığı reseptdəki dərmanları ala bilmirlər. Amma deyirlər ki, problem yoxdur. Axı, bu problem var. İnsanlar var ki, qiymət baha olduğundan dərmanı ala bilmir və dünyasını dəyişir. Parlamentdə bu məsələ qaldırılırsa, buna reaksiya verilmirsə, bununla bağlı addım atılmırsa, bu, qəbuledilməzdir. Parlament problemlərin həlli yeri deyil, onların qaldırıldığı və deyildiyi məkandır. Amma Milli Məclisdə bir məsələ qaldırılırsa, bu, həyəcan siqnalıdır və aidiyyəti qurumlar buna ciddi reaksiya verməlidir. Parlamentdə qaldırılan məsələlər müzakirə olunmalı və günahkarlar cəzalandırılmalıdır.

***Anar Kəlbiyev***

# Dövlət Turizm Agentliyinə qarşı ittihamlar səngimir

## Açıq qalan sual: dollarla yerləşdirilən əmanətlər, doğrudanmı, təhlükə altındadır?



***Azərbaycanın görkəmli maarifçilərindən biri olan Ömər Faiq Nemanzadənin İngiltərədə, Kembric şəhərində yaşayan nəticəsi Ülviyyə Pepinovanın bir müddət öncə ölkəmizə səfəri turistlərin tualet problemini yenidən qabardıb. Ülviyyə xanım öz narazılığını sosial şəbəkə hesabı üzərindən dilə gətirmişdi.***

O, Qobustan muzeyinin ayaqyolusundakı natəmizlik haqda bunları yazmışdı: "Tənqid etmədən olmaz. Azərbaycanda tualet yaralı mövzudur. Qobustan muzeyindəki tualetin istifadəçilərinin əksəriyyəti isə yerli deyil, xarici turistlərdir. Düşünürsünüz ki, gedib muzey işçilərinə şikayət etmədim? Əlbəttə ki, getdim. Bu biabırçılığı sosial şəbəkələrdə paylaşacağımı da dedim. Daha doğrusu, bunun bir hissəsini".

Həmin mövzu ilə bağlı danışan peşəkar turist bələdçisi (gid) Balaş Maqsudbəyli isə Musavat.com-a bildirmişdi ki, Ülvi Pepinovanın qaldırdığı məsələ yeni deyil: "5-6 il bundan öncə bu haqda mən də danışmışam, həmkarlarım da söhbət açıb. Baxmayaraq ki, bəzi muzeylər yenidən tikilib, amma orada ayaqyolu ilə bağlı xidmət zəifdir. Bu baxımdan Milli Xalça Muzeyi, Yanardağ Muzeyi fərqlənir. Turistlərlə çalışan bir şəxs kimi təəssüflə bildirirəm ki, bu sektorda tualet məsələsi qənaətbəxş deyil. İran sərhədinə qədər yolda normal bir tualetə rast gəlmək olmur. Yadımdadır, xarici turistlərlə Astaradan qayıdarkən vəziyyət gərgin idi, normal tualet tapa bilmirdik. 3-4 il bundan əvvəl bəzi yanacaqdoldurma məntəqələrində təmiz tualetlər var idi, amma indi vəziyyət dəyişib. Şəxsi obyekt olduğuna görə birdən-birə 30 nəfərin daxil olmasına narazılıq edirlər. Məndə olan məlumata görə, son illər yolboyu müasir standartlara cavab verən tualetlər tikilir. Gürcüstan sərhədinə qədər və cənubda belə ayaqyolular tikilib. Amma hansısa səbəbdən hələ açılmayıb. Təbii ki, muzeylərin də tualetlərinə bir az əl gəzdirsələr - vaxtında silib-süpürsələr, səliqəli vəziyyətdə saxlasalar və məlzəmələri vaxtında yerləşdirsələr qonaqlar qarşısında üzüağ olarıq. Tualet də bir mədəniyyətdir".

Digər turist bələdçilərinin müxtəlif vaxtlardakı mətbu çıxışlarından aydın olur ki, onlar da eyni fikirdədirlər. "Məsələn, Bakı-Şəki istiqaməti təxminən 325 kilometrlik məsafədi. Uzaq yoldur, turistlər tualetə ehtiyac duyur. Yol boyunca ictimai tualetlərin sayı çox az, olanlar da gigiyenik qaydalara cavab verməyəcək səviyyədə bərbad gündədir. Kiyevdə hər 4-5 kilomtrdən bir ictimai tualetlər fəaliyyət göstərir. Bu istiqamətdə uğurlu dünya təcrübəsini həyata keçirməyimiz çox yaxşı olar" - deyə onlar bildirirlər.

Hətta bir neçə il öncə Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov da demişdi ki, bəzən turistlər onun rəhbəri olduğu quruma müraciət edərək tualet çatışmazlığından gileylənirlər.

Bir sözlə, Azərbaycanın turizm sektorunda bu problem xeyli vaxtdan bəri ən aktual problem olaraq qalır və ölkəyə gələn turistlərin ən çox narazı olduğu məsələlərdən biri kimi diqqət çəkir. Ekspertlər hətta bunu ölkə turizminin canlanmasına mane olan başlıca problemlərdən biri olaraq qiymətləndirirlər.

Xatırladaq ki, təxminən 5 il öncə Milli Turizm Təbliğatı Bürosunun mətbuat katibi, hazırda Dövlət Turizm Agentliyinin (DTA) sədrinin müşaviri Kənan Quluzadə mətbuata açıqlamasında bildirmişdi ki, Azərbaycana gələn turistlərin tualet problemi tezliklə həllini tapacaq.

O qeyd etmişdi ki, bu problemin aradan qaldırılması üçün ölkədə hər 100 km-dən bir turizm məlumat mərkəzlərinin yaradılması planlaşdırılır. Sitat: ""Orada turistlər həm onlara lazım olan məlumatlar əldə edə, həm də yolüstü dincələ, həm uşaqlarını əyləndirə, həm də su və tualet ehtiyaclarını ödəyə bilərlər. Bununla bağlı monitorinq aparmışıq. Ölkə üzrə 26 belə məntəqənin inşa edilməsi nəzərdə tutulur. Bu təklif çoxdan müzakirə olunurdu, amma artıq qərar verilib. Şəhər yerlərində isə bu problemin həlli məsələsi bir qədər vaxt ala bilər. Yəqin sadəcə ictimai tualetlərin sayı artırılmalıdır".

Lakin Ü.Pepinovanın yazının əvvəlində bəhs olunan şikayətindən, eləcə də, peşəkar turist bələdçilərinin sözlərindən belə aydın olur ki, Dövlət Turizm Agentliyi bir çox problemlərlə yanaşı, həlli illər öncə vəd edilən tualet probleminin aradan qaldırılması istiqamətində də ciddi addımlar atmayıb. Elə sosial şəbəkələrdəki müzakirələrdə də bununla bağlı iradlar üstünlük təşkil edir. Bir çoxları isə tənqidləri mənasız sayır. Ona görə yox ki, turizm sektorunda hər hansı problem yoxdur. Ona görə ki, Dövlət Turizm Agentliyi ictimaiyyətdən gələn tənqidlərə dırnaqarası yanaşır, onlardan nəticə çıxarmır. Belədə isə yada məşhur bir atalar sözü düşür: "Dəyirman öz işindədir, çax-çax baş ağrıdır"...

***Toğrul Əliyev***



# Baş nazirdən qərar

## Təhsil işçilərinin yeni aylıq vəzifə maaşları artırıldı

***Bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış dövlət peşə təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxemi və məbləğləri dəyişib.***

"Unikal" xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.

Qərara əsasən, müəllimlərinin bilik və bacarıqlarının diaqnostik qiymətləndirməsi aparılmış dövlət peşə təhsili müəssisələrinin direktorlarının aylıq vəzifə maaşı 871 manat, direktorun müavinlərinin, baş mühasiblərinin aylıq vəzifə maaşı 785 manat və dərs hissə müdirlərinin aylıq vəzifə maaşı 700 manat müəyyən edilib.

İndiyə qədər Müəllimlərinin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış dövlət peşə təhsili müəssisələrinin direktorlarının aylıq vəzifə maaşı 792 manat, direktorun müavinlərinin, baş mühasiblərinin aylıq vəzifə maaşı 714 manat və dərs hissə müdirlərinin aylıq vəzifə maaşı 636 manat müəyyən edilmişdi. Bu Qərar 2023-cü il fevralın 1-dən tətbiq edilir.

Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin aylıq vəzifə maaşları artırılıb. Bu, Nazirlər Kabinetinin "Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin vəzifə maaşları sxeminin və məbləğlərinin, vəzifə maaşlarına əlavələrin məbləğlərinin təsdiq edilməsi haqqında" qərara etdiyi dəyişiklikdə əksini tapıb.

Qərara əsasən, Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin aylıq vəzifə maaşlarının sxemi aşağıdakı kimi olacaq: Eyni zamanda, qərara əsasən, Dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin aylıq vəzifə maaşları da artırılıb.

# Şəhid ailələrinin maliyyələşdirilməsi qaydası dəyişdi

***Nazirlər Kabineti 15 yanvar 1994-cü il tarixli qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nda dəyişiklik edib.***



"Unikal" xəbər verir ki, bununla bağlı Baş Nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, bundan sonra şəhid və şəhid ailələrinə xərclənən vəsait dövlət büdcəsindən ayrı-ayrı şəxslərin, müxtəlif təşkilat, idarə və müəssisələrin, o cümlədən xarici təşkilatların ianələri və digər mənbələr hesabına yaranan yardım fondlarından, eləcə də dövlət icbari şəxsi sığorta vəsaiti hesabına ödəniləcək.

İndiyə qədər ödəmə mənbəyi müvafiq şəhər (rayon) icra hakimiyyətlərinin büdcəsi, ayrı-ayrı şəxslərin, müxtəlif təşkilat, idarə və müəssisələrin, o cümlədən xarici təşkilatların ianələri və digər mənbələr hesabına yaranan yardım fondları idi.

# Nazirin həbs olunan gömrükçü əmisi oğlu azadlığa buraxıldı



***Dövlət Gömrük Komitəsinin Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinin rəis müavini, polkovnik Rəşad Babayev və Gömrük Tariflərinin Tənzimlənməsi və Ödənişlər Baş İdarəsinin Yol vergiləri və icazə blanklarına nəzarət şöbəsinin rəisi, polkovnik Şükür Səfərov azadlığa buraxılıb.***

"Unikal" apa-ya istinadən xəbər verir ki, ittiham olunan şəxslər cinayət işi üzrə dəymiş ziyanı tam ödəyiblər.

Bu əsasla cinayət işlərinə xitam verilib, barələrində seçilmiş həbs qətimkan tədbiri ləğv edilib.

Xatırladaq ki, polkovniklər - Rəşad Babayev və Şükür Səfərov Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən ötən ilin iyul keçirilən əməliyyatla həbs olunmuşdular. Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2 və 311.3.3-cü (təkrar külli miqdarda rüşvət alma) maddələri ilə ittiham olunan şəxslər barəsində həbs qətimkan tədbiri seçilmişdi.

Qeyd edək ki, polkovnik Rəşad Babayev əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin əmisi oğludur.

# Ali Məhkəmənin sədrini bu şəxs əvəz edir



***Xəbər verdiyimiz kimi, martın 6-da Ali Məhkəminin sədri Ramiz Rzayevin səlahiyyət müddəti bitib.***

"Unikal"ın məlumatına görə, Ali Məhkəmənin sədri vəzifəsi müvəqqəti olaraq sədr müavini Çingiz Əsgərova həvalə olunub.

Qeyd edək ki, Çingiz Əsgərov 2000-2003-cü illərdə Avropa Şurası yanında Azərbaycan Respublikasının Daimi Nümayəndəliyinin 1-ci katibi olub.

2003-2020-ci illərdə Prezident Administrasiyasının Hüquqmühafizə orqanları ilə iş və hərbi məsələlər şöbəsinin İnsan hüquqlarının müdafiəsi məsələləri sektorunun müdiri vəzifəsini tutub. 2020-ci ildə isə Ali Məhkəmənin hakimi və sədr müavini təyin edilib.

Ç. Əsgərov həmçinin İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsidir.

***Seymur Əli***

# Əhliman Əmiraslanov parlamentdə vətəndaşları qəbul edib

***Bu gün Milli Məclisin inzibati binasında Milli Məclisin Səhiyyə Komitəsinin sədri Əhliman Əmiraslanov vətəndaş qəbulu keçirib, onların müraciətlərini dinləyib.***

"Unikal" xəbər verir ki, komitə sədri vətəndaşları fərdi qaydada qəbul edərək müraciət və təkliflərini dinləyib, problemləri ilə maraqlanıb. Səsləndirilən müraciətlər əsasən səhiyyə, icbari tibbi sığorta, işlə təminat, əmək pensiyaları, sosial məsələlərlə bağlı müraciətlər olub. Müraciətlərin bir hissəsi yerindəcə həllini tapıb, digər müraciətlər isə nəzarətə götürülərək həll edilməsi üçün aidiyyatı qurumlarla əlaqə yaradılıb.

# Tərtərdə bir nəfər minaya düşdü

***Martın 9-u Tərtər rayonunun işğaldan azad olunmuş ərazisində 1989-cu il təvəllüdlü Yaquar Hadiyevin minaya düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alması barədə rayon prokurorluğuna məlumat daxil olub.***

"Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluq məlumat yayıb.

Bildirilib ki, prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib digər zəruri istintaq hərəkətləri aparılıb.

Hazırda qeyd edilən faktla bağlı Tərtər rayon prokurorluğunda araşdırma davam etdirilir.

# AZAL-ın yüksək vəzifəli şəxsinin borc qalmaqalı...

## Hava Limanının rəisi 40 min manatı niyə alıb, nə üçün geri qaytarmayıb?

***"Azərbaycan Hava Yolları" QSC-nin Lənkəran Beynəlxalq Hava Limanının direktoru 40 min manat mənimsəmədə ittiham olunur. Belə ki, limanın rəisi Anar Axundov Lənkəran şəhər Ağsaqqallar Şurasının sədri Eldar Hüseynovdan aldığı 40 min manatı geri qaytarmayıb.***

Bu barədə məlumat yayan "Qaynarinfo"nun məlumatına görə, Eldar Hüseynov iddia edib ki, iki il əvvəl Anar Axundovun səmimiliyinə, tanışlığına, onu aldatmayacağına inanaraq 40 min manat borc verib. Lakin liman rəisi aldığı pulu geri qaytarmır, 2 ildir onu get-gələ salır, hər dəfə müxtəlif bəhanələr deyir. Anar Axundov ona ötən ilin oktyabr ayının sonuna kimi borcu ödəyəcəyinə söz versə də, bunu etməyib.



Artıq məhkəmə Eldar Hüseynovun tələb etdiyi 40 min və ödənilmiş dövlət rüsumuna görə 210 manatın Anar Axundovdan tutulması barədə iddianı təmin edib.

Lənkəran Beynəlxalq Hava Limanının rəisi faktı təsdiqləyib: "Pulu mənimsəməmişəm. Lazım olub, götürmüşəm. Artıq onu qaytarmağa başlamışam. Bu barədə Eldar Hüseynovun özündən də soruşa bilərsiz".

Lakin rəis pulu nə üçün aldığını və niyə vaxtında qaytarmadığını açıqlamayıb.

Qeyd edək ki, Anar Axundovun dayısı da "Azərbaycan Hava Yolları" QSC-də yüksək vəzifədə çalışır.

11 mart 1941-ci ildə Lənkəran rayonunun Vilvan kəndində anadan olan Eldar Hüseynov 2000-ci ildən 2020-ci ilə kimi Lənkəran bələdiyyəsinin sədri olub, 2021-ci ildə Lənkəran şəhər Ağsaqqallar Şurasının sədri seçilib.

Qeyd edək ki, biz indiyədək AZAL-ın zərərlə işləməsi və bunun müqabilində külli miqdarda (son məlumatlara görə, ən azı 1,5 milyard) borclanması barədə oxuyurduq. İndi isə bu dövlət şirkəti özünün yüksək vəzifəli şəxsinin borc qalmaqalı ilə gündəmə gəlib. Belə getsə, AZAL-ın adı yalnız borc, zərər, mənimsəmə kimi sözlərlə assosiasiya ediləcək.

Yeri gəlmişkən, bir çox bölgə aeroportları kimi Lənkəran Hava Limanının səmərəliliyi də xeyli vaxtdır müzakirə mövzusudur. "Lənkəran Hava Limanının tikintisinə 51,5 mln. dollar (indiki məzənnə ilə 87 mln. manata yaxın) pul xərclənib. Hava limanı demək olar ki, çalışmır, buna baxmayaraq, hər il hava limanının kommunal xərclərinə və işçilərin maaşına 5 mln. manata yaxın pul xərclənir, 2008-ci ildən bəri hava limanının xərcləri az qala elə tikintiyə xərclənən qədər olub" deyə bir müddət öncə iqtisadçı-ekspert Natiq Cəfərli bildirmişdi. Ardınca isə bu hava limanının özəlləşdirilməsini təklif eləmişdi. Sitat: "İndi nə etmək olar? Lənkəran Hava Limanının AZAL-ın idarəçiliyindən tam çıxarılır, xarici şirkətlərdən birinə (Türkiyə şirkətlərinin marağı olduğunu bilirəm) idarəetməyə verilir və ən vacibi-uçuşların təşkili və icazələrin verilməsi AZAL-dan ayrılır, AZAL rəhbərliyinin uçuş cədvəlinə və təşkilinə heç bir müdaxiləsi olmur. Nəticədə Lənkəran Hava Limanına bir neçə şirkət cəlb olunur, ilkin mərhələdə Türkiyəyə, Rusiyaya, Ukraynaya uçuşlar təşkil edilir, qiymətlər Bakı Hava Limanından ən azı 2 dəfə ucuz olur. Bundan sonra Bakıdan uçuşlarda müştərilərinin kəskin azaldığını görüb AZAL da məcburən qiymətləri endirəcək..."

Onu da deyək ki, Anar Axundovla bağlı borc qalmaqalı Azərbaycanda önəmli post sahibləri ətrafında yaşanan ilk skandal deyil.

Məsələn, "Bakı Metropoliteni"nin keçmiş rəisi Tağı Əhmədov yaxın dostu, professor Soltan Əliyev vasitəsilə Səadət Xəlilov, Qulu Muxtarov və Sahil Abuşova ümumilikdə 2 milyon manata yaxın pulu sələmə verməsi də böyük səs-küyə səbəb olmuşdu. Bu qalmaqal məhkəməyədək uzanmış, hətta Əhmədovun "borc" adı altında sələm verdiyi şəxslərdən pulunu geri ala bilmədiyi üçün onları döydürtdüyü ortaya çıxmışdı.

Və ya sabiq deputat Rafael Cəbrayılovun isə bir qrup vətəndaşdan külli miqdarda borc pul alması, həmin borcu vaxtında qaytaracağına zəmanət olaraq isə III və IV çağırış deputat vəsiqəsini girov qoyması məlum olanda bu ölkədə geniş rezonans doğurmuşdu. Nəticədə Cəbrayılov deputat mandatından imtina etmək məcburiyyətində qalmışdı. Bir müddət sonra onun barəsində cinayət işi başlanmış və eks-deputat həbs olunmuşdu.

Rafael Cəbrayılovun toplam olaraq 1 550 000 (1 milyon 550 min) dollar borcu olduğu bildirilirdi. Bu isə milli valyuta ilə 2 635 000(2 milyon 635 min) manat eləyirdi.

Xatırladaq ki, sabiq deputat həbsdə olarkən, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Müalicə Müəssisəsində 2021-ci ilin sentyabrında koronavirusdan dünyasını dəyişib.

***Sənan Mirzə***

# Nazir bacanağının da pay sahibi olduğu bankla bağlı ilginc iddia

## Açıq qalan sual: dollarla yerləşdirilən əmanətlər, doğrudanmı, təhlükə altındadır?

***Təxminən 10 gün öncə yerli mətbuatda yayılan məlumatlarda bildirilib ki, ”Bank of Baku”da əmanəti olan şəxslərin əmanətləri risk altındadır. Kommersant.az-ın yaydığı xəbərə görə, Bankın əhalidən topladığı əmanətlərə nəzarət Azərbaycan Respublikasının qanunları çərçivəsindən çıxarılıb.***

O da vurğulanıb ki, ”Bank of Baku”nun dollarla 2 və 3 illik qəbul etdiyi əmanətləri Əmanətlərin Sığortalanması Fondu (qısaca - ADİF) sığortalamır. Əmanətlərin sığortalanması haqqında qanuna görə 1 iyun 2020-ci il tarixindən etibarən xarici valyutada olan və qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi 2,5 faiz olaraq müəyyən edilib.




”Bank of Baku”da 2 illik yerləşdirilən əmanətlərin faizi aylıq ödənildikdə 2.55 faiz, əmanətin illik faizini müddətin sonunda ödəmək şərti ilə 2.65 faiz olaraq müəyyən edib. Buna görə də yuxarıda qeyd olunan Azərbaycan Respublikası qanunlarına görə ADİF tərəfindən həmin əmanətlər sığortalanmır. Bundan başqa ”Bank of Baku”nun 3 illik qəbul etdiyi dollar əmanətlərinin də faizləri aylıq ödənildikdə 2.65 faiz, müddətin sonunda ödənildikdə isə 2.75 faiz olaraq müəyyən olunub. Eyni şəkildə bu şərtlər altında banka əmanət yerləşdirən əhalinin vəsaitləri ADİF tərəfindən qorunmur.

Qeyd edək ki, 02 mart 2016-cı il tarixindən etibarən ADİF-ə üzv banklarda qəbul edilən əmanətlər illik faiz dərəcəsinin yuxarı həddi Fondun Himayəçilik Şurasının müəyyən etdiyi faiz dərəcəsi (xarici valyutada 2.5 faiz) çərçivəsində olmaqla 4 il 9 ay müddətində tam sığortalanır və tam kompensasiya olunur. Bu göstəriciləri üstələyən (xarici valyutada 2.5 faizi ötən) əmanətlər isə heç bir halda sığortalanmır.

Maraqlı burasıdır ki, yuxarıdakı xəbərin üzərindən təxminən 10 gün keçməsinə baxmayaraq, “Bank of Baku” ortaya atılan iddialarla bağlı hər hansı açıqlama yaymayıb və deyilənlərin doğru olub-olmamasına aydınlıq gətirməyib. Halbuki mediada yazılanlar bankın müştərilərində təlaş yarada, eyni zamanda dollar əmanətlərini bu banka etibar etmək istəyən vətəndaşlarda tərəddüd doğura bilər. Məhz bunu nəzərə aldıqda “Bank of Baku”dakı dollar əmanətlərinin təhlükədə olmasına dair iddialara susqun münasibət təəccüblüdür. Xüsusilə də hədəfiniz “müştərilərin gözləntilərini qarşılamaq və “Sizə yaxın bankçılıq” şüarını doğrultmaq”dırsa!

Bankın səslənən iddialar qarşısında günlərdir davam edən susqunluğu müqabilində belə bir haqlı sual açıq olaraq qalır: “Bank of Baku”ya dollarla yerləşdirilən əmanətlər, doğrudanmı, təhlükə altındadır?

Xatırladaq ki, “Bank of Baku” Açıq Səhmdar Cəmiyyəti 1994-cü ildə yaranıb. Bank pərakəndə biznes, kiçik və orta sahibkarlıq, böyük korporativ biznesi dəstəkləyir və müştəri xidmətləri keyfiyyətinin artırılmasına davamlı səy göstərir. Həmçinin, hissə-hissə ödənişli kredit kartlarını ölkədə ilk dəfə kütləvi dövriyyəyə buraxıb. 2011-ci ilin payızında Azərbaycanda ilk dəfə Bolkart hissə-hissə ödənişli kart layihəsinə start verib. Bir sözlə, bank sektorunda bir çox yeniliklərə imza atmasına baxmayaraq adıçəkilən ASC-ilə bağlı son illərdə bir neçə dəfə bağlanma xəbəri yayılıb. Halbuki “Bank of Bak” 2022-ci il üzrə yüksək nəticələr açıqlayıb. Belə ki, ötən il onun aktivləri 40%, xalis mənfəəti isə 60%-dən çox artıb. Artım bankın bütün göstəricilərində özünü göstərib. Ümumiyyətlə isə 2022-ci il “Bank of Baku”nun əksər göstəricilərində 40% artımla yadda qalıb. Bura əmanətlərlə bağlı rəqəmlər də daxildir - fiziki şəxslərin əmanətləri 110 milyon manata yaxın artaraq 330 milyon manata yüksəlib, hüquqi şəxslərin depozitləri isə 10 milyon manat artımla 35 milyon manatı keçib.

2022-ci ilin sonunda cəmi kapitalı 28 milyon manat artaraq 122,9 milyon manata çatan “Bank of Baku”nun səhmlərinin 35 %-i Türkiyənin ”NAB Holding” şirkətinə, 31,1 %-i Hikmət Abuzər oğlu İsmayılova, 28,9 %-i ”Azpetrol Neft Şirkəti” MMC-yə, 5 %-i isə Elçin Həmid oğlu İsayevə (Müşahidə Şurasının sədri) məxsusdur.

Onu da deyək ki, bankın ən böyük payçılarından olan Hikmət İsmayılov fövqəladə hallar nazirinin bacanağıdır. O, ”Azsığorta” ASC-nin 100 %-lik sahibidir.

Bundan başqa, 2019-cu ildə həmin ”Gilan Holding”ə daxil olan ”AFB Bank”ın səhmləri satılıb. Belə ki, bankın 55 447 səhmini 70,140,455 (yetmiş milyon bir yüz qırx min dörd yüz əlli beş) manata məhz Hikmət İsmayılov alıb. Bir az da dəqiqləşdirsək, ”Gilan Holding” ”AFB Bank”ın səhmlərinin 99,64 faizinə nəzarət edirdisə, həmin vaxtdan bu pay bütünlüklə H.İsmayılova keçib.

***Toğrul Əliyev***

# Zakir Həsənov NATO rəsmisi ilə görüşdü



***Martın 9-da Azərbaycan müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan NATO-nun Quru Qoşunları Komandanlığının qərargah rəisi general-leytenant Mustafa Oğuz ilə görüşüb.***

Bu barədə “Unikal”a Müdafiə Nazirliyindən (MN) məlumat verilib.

General-polkovnik Z.Həsənov Türkiyədə baş verən güclü zəlzələ nəticəsində həlak olanların yaxınlarının dərdlərinə şərik olduğunu qeyd edib, ailələrinə dərin hüznlə başsağlığı verib və bütün yaralılara şəfa diləyib. Türkiyənin acısı bizim də acımızdır deyən nazir Azərbaycanın hər zaman qardaş ölkənin yanında olduğunu xüsusi vurğulayıb.

Sonra general-polkovnik Z.Həsənov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Orduda aparılan islahatlar, azad edilən ərazilərdə görülən işlər, eləcə də Azərbaycan-Ermənistan şərti dövlət sərhədi və Qarabağ iqtisadi rayonundakı cari vəziyyət barədə qonağı məlumatlandırıb.

NATO ilə əməkdaşlıqda əldə edilən uğurlardan danışan müdafiə naziri qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

General-leytenant Mustafa Oğuz öz növbəsində zəlzələdən sonra göstərilən dəstəyə görə təşəkkürünü bildirib. Martın 5-də səhər saatlarında qeyri-qanuni erməni birləşmələrinin törətdikləri təxribat nəticəsində şəhid olan Azərbaycan Ordusunun hərbi qulluqçularına rəhmət diləyib və onların ailələrinə dərin hüznlə başsağlığı verib.

Daha sonra Azərbaycan ilə əməkdaşlığın cari vəziyyətindən danışan NATO-nun Quru Qoşunları Komandanlığının qərargah rəisi bu sahədə əldə edilən müsbət nəticələrdən məmnunluğunu ifadə edib.

Görüşdə Azərbaycan-NATO hərbi əməkdaşlığının Əməliyyat İmkanları Konsepsiyası çərçivəsində xüsusi əhəmiyyət kəsb etdiyi qeyd olunub. Sonda ikitərəfli əlaqələrin inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Nazirlik: “Novruz yarmarkası fəaliyyətə başlayır”



***Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Novruz bayramı ilə əlaqədar olaraq 11-19 mart tarixlərində “Kənddən Şəhərə” yarmarkaları təşkil olunacaq. Yarmarkaların təşkilində əsas məqsəd bayram günlərində vətəndaşların kənd məhsullarına artan tələbatlarını yerli və sağlam məhsullarla təmin etmək və fermer təsərrüfatları üçün alternativ satış kanalı yaratmaqdır.***

“Unikal” xəbər verir ki, “Kənddən Şəhərə” Novruz yarmarkalarında satışa çıxarılacaq məhsullar yarmarkada iştirak üçün əvvəlcədən qeydiyyatdan keçən fermerlər tərəfindən alıcılara təqdim olunacaq. Yarmarkada ümumilikdə 50 regiondan 82 fermer iştirak edəcək. Fermerlər 90-dan artıq çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcəklər.

Satışa çıxarılan məhsulların keyfiyyətinə nəzarət etmək məqsədi ilə yarmarkalarda Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar yarmarkada satışa çıxarılan hər hansı bir məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən faydalana bilərlər.

Qeyd edək ki, “Kənddən Şəhərə” Novruz yarmarkalarında fermerlər heç bir ödəniş etmədən piştaxta, tərəzi, soyuducu və digər ləvazimat və avadanlıqlarla tam təchiz olunmaqla öz məhsullarını şəhər sakinlərinə təqdim edəcəklər. Məhsullarının daşınmasında çətinlik yaşayan fermerlərə isə təşkilatçı qurum tərəfindən logistika dəstəyi göstəriləcək. “Kənddən Şəhərə” Novruz yarmarkaları aşağıdakı ünvanlarda fəaliyyət göstərəcək:

- Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 (metronun “Gənclik” stansiyasının çıxışı);
- Binəqədi rayonu, Süleyman Sani Axundov, 5B (“İnqilab” kinoteatrının yanı).

## Statistika Komitəsi bütün informasiya sistemlərini "Hökumət buludu"na köçürüb



***Prezident İlham Əliyevin "Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında 3 iyun 2019-cu il tarixli 718 nömrəli Fərmanının icrası məqsədilə həyata keçirilən "Hökumət buludu"na Keçid Planına əsasən dövlət qurumları ilə işlər davam etdirilir.***

Fəaliyyət çərçivəsində dövlət qurumlarının informasiya sistemlərinin Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "AzInTelecom" MMC-yə məxsus Bakı və Yevlax Data mərkəzlərinə tam və ya qismən miqrasiyası həyata keçirilir.

Dövlət Statistika Komitəsi (DSK) "Hökumət buludu"na miqrasiya çərçivəsində "AzInTelecom" MMC-nin təqdim etdiyi IaaS (İnfrastructure-as-a-Service) bulud infrastrukturu xidmətini əldə edib. DSK bütün informasiya sistemlərini tam olaraq "AzInTelecom" MMC-yə məxsus Data Mərkəzində yerləşdirməklə kritik sistemlərinin yüksək əlçatanlığını təmin edib.

İlkin mərhələdə DSK-nın ümumi infrastrukturunun qiymətləndirilməsi nəticəsində hesabat hazırlanıb və bunun əsasında İT sistemlərin miqrasiyası üçün konsultasiya xidməti verilib, həmçinin miqrasiya prosesini əks etdirən Yol Xəritəsi hazırlanıb.

Dövlət Statistika Komitəsi məlumatların təhlükəsiz saxlanılması məqsədilə Rezervlənmə (BaaS-Backup as a Service) bulud xidmətindən də yararlanıb. Bu xidmət daxilində təqdim edilən funksionallıqları daha çevik və sadə formada idarə etmələri məqsədilə dövlət qurumu komitə mütəxəssislərini "Veeam" platforması ilə təmin edib.

Dövlət qurumlarının "Hökumət buludu"na miqrasiyası ilə cari İT xərcləri azalır və informasiya sistemlərinin məhsuldarlığı artır.

Bununla yanaşı, informasiya sistemlərinin təhlükəsizliyinin daha da təkmilləşdirilməsinə, sabit və dayanıqlı İT infrastrukturuna, operativ koordinasiya ilə yüksək keyfiyyətli servis təminatı və 24/7 monitorinq xidmətinə nail olunur.

"AzInTelecom" MMC Azərbaycan və Cənubi Qafqaz regionunda "TIER III" Beynəlxalq uyğunluq sertifikatına malik ilk qurumdur. Bundan əlavə, "ISO 20000", "ISO 22301" və "ISO 27001" sertifikatlarının tələblərini ödəyən Bakı və Yevlaxda yerləşən 2 Data Mərkəzinə malikdir.

## "Bravo"dakı silahlı basqına görə 3 nəfər həbs edildi



***Xəbər verildiyi kimi, martın 4-də saat 12 radələrində paytaxtın Xətai rayonu ərazisində yerləşən "Bravo" hipermarketində baş vermiş silahlı insident zamanı Həşimov Rüfət Sahib oğlunun qəsdən öldürülməsi və Şaydayev Samir Ruslan oğlunun sağlamlığına ağır zərər vuran xəsarətlər yetirilməsi barədə daxil olmuş məlumatla bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq istintaq aparılır.***

"Unikal" xəbər verir ki, Prokurorluq və DİN əməkdaşları tərəfindən keçirilən tədbirlər nəticəsində qabaqcadan əlbir olan Ruhlan İsmayılov, Dəyanət Qudrətov, Azər Məmmədov və Səbuhi Qurbanovun bir qrup şəxs halında ümumi təhlükəli üsulla və quldurluqla əlaqədar qəsdən adam öldürmə, adam öldürməyə cəhd, quldurluq və qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatını əldə edib saxlama və gəzdirmə cinayətlərini törətmələrinə əsaslı şübhələr müəyyən edilib.

İstintaq-əməliyyat tədbirləri nəticəsində şübhəli şəxs qismində saxlanılan Dəyanət Qudrətova ilkin olaraq Cinayət Məcəlləsinin 120.2.1, 120.2.4, 120.2.11 29, 120.2.7 və digər maddələri, Azər Məmmədov və Səbuhi Qurbanova isə ilkin olaraq Cinayət Məcəlləsinin 32.5, 120.2.1, 32.5,120.2.4, 32.5, 120.2.11, 32.5, 29, 120.2.7 və digər maddələri ilə ittiham elan edildikdən sonra barələrində məhkəmənin qərarı əsasında həbs qətimkan tədbiri seçilib.

Həmin gün saat 21 radələrində yaxalanması istiqamətində keçirilən əməliyyat tədbirləri zamanı Ruhlan İsmayılov polis əməkdaşlarına qarşı silahlı müqavimət göstərdiyi üçün zərərsizləşdirilib.

Ruhlan İsmayılovun gizləndiyi mənzilə istintaq-əməliyyat qrupu tərəfindən baxış keçirilərkən cinayət nəticəsində əldə olunan 16 min 835 manat və 20 min 100 ABŞ dolları pul, "AKS Lancaster-03" markalı odlu silah, 1 ədəd "Makarov" və 1 ədəd "Colt" tipli tapançalar, çoxsaylı döyüş sursatları, əməliyyat tədbiri nəticəsində saxlanılan şübhəli şəxs Dəyanət Qudrətovunun üzərindən isə 1 ədəd "Blow TR 92D" modelli tapança aşkar edilərək götürülüb.

Cinayət işi üzrə istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Media nümayəndələri və sosial şəbəkə istifadəçilərindən rəsmi qurumla dəqiqləşdirilməmiş məlumatların paylaşılmaması bir daha xahiş olunur.

# Fazil Məmmədovun qohumlarına "stop" şoku

## Onların bir çoxu ölkədən kənara çıxa bilmirlər - Səbəbi nədir?

***Keçmiş vergilər naziri, mərhum Fazil Məmmədovun bir çox yaxın qohumları vergi və digər borcları səbəbi ilə ölkədən kənara çıxmaqda çətinlik çəkirlər. Həmin borcların ümumi məbləğinin isə kifayət qədər yüksək rəqəmlərlə ifadə olunduğu vurğulanır.***

Məsələn, ötən ilin sonlarında İqtisadiyyat Nazirliyi Yanında Dövlət Vergi Xidməti Bakı Şəhəri Lokal Gəlirlər Baş İdarəsi tanınmış iş adamı Kamilov Əşrəf Kamil oğluna qarşı məhkəmə iddiası qaldırıb. Məhkəmə iddiası vergi ödəyicisinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı olub.



Həmin vaxt bildirilirdi ki, Əşrəf Kamilov vaxtı ilə ölkənin ən böyük şirkətlərindən biri olmuş və mediada mərhum F.Məmmədovun ailə şirkəti olaraq təqdim edilən "AtaHolding" MMC-nin (VÖEN-1400096711) Müşahidə Şurasının sədr müavini və qanuni təmsilçisidir. Nizamnamə kapitalı 40 milyon manatdan çox olan "AtaHolding"in tərkibində onlarla şirkət fəaliyyət göstərib. Hazırda ləğv prosesində olan "AtaBank" ASC -də (VÖEN-9900006651) "AtaHolding"ə məxsus olub. Əşrəf Kamilov eyni zamanda "AtaBank"ın Müşahidə Şurasının sədri və bank səhmlərinin 16%-nə sahib olub.

Ə.Kamilova qarşı məhkəmə zamanı aydınlaşıb ki, "Ata-Holding" MMC-nin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinə ümumilikdə 845806,99 manat, Dövlət Sosial Müdafiə Fonduna 133027,81 manat, İşsizlikdən Sığorta Fonduna olan 9513,96 manat, İcbari Tibbi Sığorta Fonduna 14161,22 manat məbləğində borcu yaranıb. Kamilov borcunun böyük bir hissəsini ödədiyi üçün İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinin onun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasına dair ərizəsi baxılmamış saxlanılıb.

Qeyd edək ki, bir neçə ay öncə "AtaHolding" MMC-nin dövlət büdcəsinə ümumilikdə 1 milyon 15 min 68 manat 92 qəpik vergi borcunun yarandığı açıqlanmışdı.

Mərhum nazirin ölkədən çıxış problemi ilə üzləşmiş başqa bir yaxını olaraq isə onun bacısı oğlu Elnur İsgəndərovdur. Belə ki, ötən il İqtisadiyyat Nazirliyi Yanında Dövlət Vergi Xidməti Bakı Şəhəri Lokal Gəlirlər Baş İdarəsi onun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı məhkəmə iddiası qaldırıb.

Məlumat üçün bildirək ki, Elnur İsgəndərov "Synergy Group" MMC-nin (VÖEN - 1701078891) qanuni təmsilçisidir. Nizamnamə kapitalı 50 milyon manat olan MMC 25.01.2010-cu ildə dövlət qeydiyyatına alınıb.

Qeyd edək ki, "Synergy Group"un adı da uzun illər mətbuatda mərhum F.Məmmədovla birgə hallanıb. Bildirilib ki, "Synergy Group" və bu qrupa daxil olan şirkətlərin rəhbərliyində təmsil olunan şəxslər Fazil Məmmədovun yaxın çevrəsində olan şəxslər olub.

Onu da bildirək ki, Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Departamentinin barəsində iddia qaldırdığı Elnur İsgəndərov mərhum dayısı vergilər naziri olarkən elə həmin qurumda - adıçəkilən departamentin Bəyannamələr idarəsinin direktor müavini vəzifəsində işləyib.

İddialar bu yöndədir ki, F.Məmmədovun bir neçə başqa yaxın qohumu da dövlətə olan borclar səbəbindən ölkəni tərk edə bilməmək təhlükəsi ilə üz-üzədir. Həmin qohumlar onun "biznes imperiyası"na daxil olan şirkətlərə rəhbərlik edirlər, yaxud Fazil müəllim vəzifədə olduğu vaxtda özlərinə biznes qurublar. Həmin şirkətlərin vaxtilə dövlət satınalmalarında fəal iştirak etdiyi, artıq ləğv olunan Vergilər Nazirliyi başda olmaqla bir çox dövlət qurumlarının tenderlərini qazandığı deyilir.

Yeri gəlmişkən, 2022-ci ilin dekabrında F.Məmmədovun daha bir qohumu - Şəmkir rayonunun Dəllər Cəyir kəndinin keçmiş icra nümayəndəsi Tünzalə Hüseynova adı çəkilən rayonun hazırda həbsdə olan icra başçısı Alimpaşa Məmmədovu ondan 400 min manat almaqda ittiham edib. O bu barədə A.Məmmədovun Gəncə Ağır Cinayətlər Məhkəməsində keçirilən növbəti məhkəmə prosesində bildirib. Hakim isə T.Hüseynovanın iş üzrə zərərçəkən kimi tanınmadığını və bu baxımdan məhkəmə istintaqında dindirilməsinin mümkünsüz olduğunu deyib.

Prosesdən sonra T.Hüseynova mərhum nazir F.Məmmədovun qohumu olduğunu təsdiqləyib, sonra da əlavə edib ki, 400 min manatı həmin vaxt Şəmkirin icra başçısı olan Alimpaşa Məmmədova şadlıq sarayının tikintisi üçün verib. O, həmçinin, Alimpaşa Məmmədovun həbsindən sonra bu məsələ ilə əlaqədar ibtidai istintaqda dindirildiyini, lakin naməlum səbəbdən zərərçəkmiş kimi tanınmadığını söyləyib.

Xatırladaq ki, mərhum nazir F.Məmmədov 2000-2017-ci illər ərzində Azərbaycanın vergilər naziri postunu tutub. O, ötən ilin dekabrında müalicə üçün aparıldığı Türkiyədə, İstanbuldakı xəstəxanalardan birində 58 yaşında vəfat edib.

***Sənan Mirzə***

**5.3.5. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ermənistan sülh və insanlıq əleyhinə cinayətlərini davam etdirir

## İlqar Vəlizadə: "Ermənilər Avropa İttifaqının missiyasının fəaliyyətindən də öz xeyirlərinə istifadə etmək istəyirlər"



***Azərbaycan haqq savaşında qalib gələrək 30 ilə yaxın işğal altında olan torpaqlarını yağı tapdağından azad etsə də, düşmən tərəf təxribatlardan əl çəkmək bilmir. Martın 5-də Xankəndi-Xəlfəli-Turşsu torpaq yolundan istifadə edilməklə Ermənistan Respublikasından hərbi ləvazimatların, silah-sursatın və şəxsi heyətin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinə daşınmasının həyata keçirilməsinə cəhdin qarşısı alındı.***

Qanunsuz hərbi daşınmalar həyata keçirən nəqliyyat vasitələrinin Azərbaycan Ordusunun bölmələri tərəfindən saxlanılaraq yoxlanılmasına cəhd göstərildi. Qarşı tərəfdən açılan atəş nəticəsində Azərbaycanın iki hərbiçisi şəhid oldu. Ərazidə Rusiya sülhməramlılarının, eləcə də Ermənistan-Azərbaycan sərhədində Avropa İttifaqının (Aİ) müşahidəçilərinin yerləşməsinə baxmayaraq düşmənin belə bir təxribata əl atması birmənalı qarşılanmır. Bu düşmənin sülh əleyhinə cinayətlər törətməsinin daha bir sübutu kimi dəyərləndirilməlidir.

Politoloq İlqar Vəlizadə deyir ki, düşmənin bu əməlinə başqa siyasi don geyindirməyə cəhdlər uğursuzluqla nəticələnəcək. Politoloq deyir ki, 44 günlük Vətən müharibəsində diz çökdürülən Ermənistanın təxribat cəhdlərinin davamlı olması yolverilməzdir. Onun sözlərinə görə, Azərbaycan bölgədə sülhün təmin olunmasının tərəfdarıdır. Ölkə prezidenti dəfələrlə Qarabağda yaşayan ermənilərin Azərbaycan vətəndaşları olduğunu bildirib. Buna baxmayaraq düşmən tərəf iki xalq arasında dinc birgəyaşayışa qarşı çıxaraq tez-tez təxribatlar törədir.

İ.Vəlizadə bildirib ki, ermənilərin Xankəndi-Xəlfəli-Turşsu torpaq yolundan istifadə edərək qanunsuz silah daşıması və bu təxribatın qarşısının alınması zamanı baş verən insidentə siyasi don geyindirmək cəhdləri yolverilməzdir.

"Ermənilər Avropa İttifaqının missiyasının fəaliyyətindən öz xeyirlərinə istifadə etmək istəyirlər. Onlar Azərbaycana qarşı bu missiya vasitəsilə təzyiq etməyə çalışırlar. Halbuki, Avropa İttifaqının Ermənistan-Azərbaycan sərhədinin monitorinqi üçün göndərdiyi müşahidəçilərin fəaliyyəti hiss olunmur. Onların fəaliyyətləri çox uğursuzdur"deyə İ. Vəlizadə bildirdi.

Politoloqun sözlərinə görə, monitorinq adı ilə bölgəyə gələn missiya hərbiləşdirilir, humanitar xarakterdən çıxaraq, polis, jandarm kimi fəaliyyət göstərməyə başlayır: "Bu isə heç də sadə və qəbul olunası məsələ deyil. Aİ missiyasının fəaliyyəti haqqında problemlər gələcəkdə də davam edəcək. Çünki, onun işi başqa məqsədlərə hesablanıb".

İlqar Vəlizadə onu da bildirdi ki, Qarabağda, Laçın yolu ətrafında ermənilərin törətdiyi gərginlik süni olaraq yaradılır.

Həmsöhbətimiz bildirir ki, ermənilər bundan Azərbaycana qarşı istifadə etmək istəyirlər. Onlar diqqəti Azərbaycanı Laçın dəhlizini guya blokadaya saldığına çəkmək istəyirlər: "Yadınızdadırsa, Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları sahəsində ölkəmizə qarşı genişmiqyaslı təxribat törətmişdilər. Halbuki, Azərbaycan sadəcə öz əraziləri daxilində mühəndis-quruculuq işləri görürdü. Qışın gəlişi ilə əlaqədar erməni tərəfi Azərbaycanın sərhəddə gördüyü texniki işləri ləngitmək, mane olmaq üçün təxribatlara əl atmışdı. Həmin vaxt Azərbaycan ordusunun sərhəddəki tutarlı cavabı ermənilərə dərs olmalı idi. Amma proseslər göstərir ki, Ermənistan baş verənlərdən nəinki nəticə çıxarıb sülhə doğru addım atır, əksinə, sülh prosesini ləngidir. Sülh və insanlıq əleyhinə cinayətlərdən çəkinmək bilmir. Hətta Aİ missiyasının gəlişindən sonra da sərhəddə sabitlik yaranmayıb. Qarşıya qoyulan tələblər həll edilməmiş qalır. Delimitasiya və demarkasiya prosesləri həyata keçirilməyib. Sual olunur ki, bəs missiya hansı işlərə yardım göstərir ki, heç bir irəliləyiş, məlumat, fəaliyyət yoxdur? Töhfəsi olmayan bir təsisatın regionda qalmasının əhəmiyyəti də yoxdur".

İ. Vəlizadə düşmənin Laçın dəhlizində ekoloji aksiyaya da siyasi don geyindirmək cəhdlərinin uğursuzluğa düçar olacağı qənaətindədir. Onun sözlərinə görə, Azərbaycan tərəfi dəfələrlə sülhməramlılara bildirib ki, dəhlizə nəzarət gücləndirilməlidir, hərbi mahiyyət daşıyan yüklər keçməməlidir, yalnız humanitar məsələlərlə bağlı istifadə olunmalıdır: "Ancaq biz görürdük ki, xarici vətəndaşlar dəhlizi keçirdilər. Bundan əlavə müxtəlif təyinatlı hərbi yükləri Laçın dəhlizindən aparırdılar. Azərbaycan tərəfi haqlı olaraq bunun, yolverilməz olduğunu bəyan edir. 10 noyabr Bəyanatının 6-cı bəndində qeyd edilir ki, Azərbaycan Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir. Ona görə də təhlükəsizliyi təmin etmək üçün bu yolda post quraşdırılmalıdır".

İlqar Vəlizadə hesab edir ki, nəzarət-buraxılış məntəqəsi yalnız Azərbaycan hərbçiləri tərəfindən həyata keçirilməlidir.

Xatırladaq ki, martın 5-də, səhər saatlarında Xankəndi-Xəlfəli-Turşsu torpaq yolundan istifadə edilməklə Ermənistan Respublikasından hərbi ləvazimatların, silah-sursatın və şəxsi heyətin Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinə daşınmasının qarşısı alınıb.

Qeyri-qanuni erməni birləşmələrinin törətdikləri təxribat nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları Şəhriyar Ramiz oğlu Əlibəyli və Eşqin Cəmil oğlu Hüseynov şəhid olublar.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Azərbaycanda Səhiyyənin Təminat Mərkəzi yaradılır

***Prezident İlham Əliyev Səhiyyə sahəsində təchizat və təminatla bağlı fəaliyyətin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, Fərmanda deyilir:

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, səhiyyə sahəsində təchizat və təminatla bağlı fəaliyyətin təkmilləşdirilməsi üzrə həyata keçirilən tədbirlərin davam etdirilməsi məqsədilə qərara alıram:

1. "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (bundan sonra - TƏBİB) tabeliyindəki tibb müəssisələrinin fəaliyyətinin təşkili məqsədilə onları "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada zəruri iş, xidmət, mal-material və digər ləvazimatla təmin etmək üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan "İnnovasiya və Təchizat Mərkəzi" (bundan sonra - Mərkəz) əmlakı ilə birlikdə TƏBİB-in tabeliyinə verilsin.

2. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi öz tabeliyində "Səhiyyənin Təminat Mərkəzi" (bundan sonra - Qurum) publik hüquqi şəxsi yaratsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. Mərkəzin "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində nəzərdə tutulan təsisçisinin səlahiyyətlərini TƏBİB həyata keçirir;

3.2. Mərkəzin saxlanılması və fəaliyyətinin təmin edilməsi onun fəaliyyətindən əldə edilən gəlirlər, icbari tibbi sığorta sistemindən daxil olan vəsait, ianələr, qrantlar və qanunla qadağan edilməyən digər mənbələrdən daxil olan vəsait hesabına həyata keçirilir;

3.3. Qurumun "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində nəzərdə tutulan təsisçisinin səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

3.4. Qurumun saxlanılması xərcləri 2023-cü il və növbəti illərin dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi üçün nəzərdə tutulmuş vəsait çərçivəsində həyata keçirilir.

4. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi:

4.1. Qurumun nizamnaməsini, strukturunu, işçilərinin say həddini və əməkhaqlarının məbləğini (vəzifə maaşını, vəzifə maaşına əlavələri, mükafatları və digər ödənişləri) bir ay müddətində təsdiq etsin;

4.2. Qurumun dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. TƏBİB:

5.1. Mərkəzin nizamnaməsini, strukturunu, işçilərinin say həddini və əməkhaqlarının məbləğini (vəzifə maaşını, vəzifə maaşına əlavələri, mükafatları və digər ödənişləri) iki ay müddətində təsdiq etsin;

5.2. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Mərkəz soyuq zəncir texnologiyalarına uyğun şəraitdə saxlanılması zəruri olan dərman vasitələri üçün balansındakı anbarlardan Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin ödənişsiz istifadəsini təmin etsin.

Bu Fərmanın 1-ci və 7-ci hissələri 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

# Qüdrətli dövlət modelinin daimiyaşar banisi - Heydər Əliyev

***2023-cü il may ayının 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycanın qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. O, siyasi addımları, uzaqgörənliyi, eləcə də humanist addımları ilə dost ölkələrdə rəğbət qazanmaqla yanaşı, ermənipərəst Fransa, İran və digər ölkə rəhbərləri və xalqının diqqətini cəlb edirdi. Eks-Fransa prezidenti Jak Şirak da Heydər Əliyev haqqında danışarkən onun "qeyri-adi" bir şəxsiyyət olduğunu açıqlamışdı: "Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən münaqişənin sülh yolu ilə həllində onun göstərdiyi cəsarəti, müdrikliyi və qətiyyəti yüksək qiymətləndirirdim".***

Umummilli lideri sevdirən əsas amillərdən biri onun xalqdan biri olması idi. O, yeri gələndə uşaqlara zaman ayırar, jurnalistlərlə səmimi söhbət edər, cavandan-qocaya hər kəsi dinləyib problemləri həll etməyə çalışar, lazım olanda da dünya nəhəngi olan ölkələrin rəhbərlərini susdurar, siyasi üstünlüyü nəzarət altına alardı.

Heydər Əliyev Məhəmməd Əmin Rəsulzadənin qurduğu dövləti məhv olmaqdan xilas etdi, Şah İsmayıl Xətainin əsasını qoyduğu dövlətçilik ənənələrinə ölməz bir təkan verdi. O, ölkənin təhlükəsizliyinin əsasını qoyan əsas qüvvə idi. 1967-ci ildə ulu öndərin Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə irəli çəkilməsi Azərbaycanın şansına çevrilməklə yanaşı, milli düşüncənin dirçəlişinə və inkişafına təkan verən amillərdən oldu. Heydər Əliyevin 1969-cü il iyulun 14-də Azərbaycanın rəhbəri seçilməsi isə respublika tarixində yeni siyasi mərhələnin başlanması kimi əlamətdar idi. Həmin dövrdə milli maraqlar naminə yüksək prinsipiallıq və qətiyyət nümayiş etdirən Heydər Əliyev qarşıya qoyduğu bir sıra ali məqsədlərə nail oldu.

1993-cü ilin iyununda ölkədə yaşanan xaos və anarxiya da təsdiqlədi ki, yalnız dəmir iradəyə, fitri idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşünə, müstəsna xarizmaya malik lider Azərbaycanın dövlət müstəqilliyini qorumaq, möhkəmləndirmək və yaşatmaq kimi ağır missiyanın öhdəsindən uğurla gələ bilər. İyun ayının 9-da xalqın israrlı istəyi ilə Bakıya qayıdan ulu öndər fövqəlidarəçilik təcrübəsi ilə Azərbaycanı vətəndaş qarşıdurmasından, müstəqilliyini itirmək təhlükəsindən qurtardı, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil old. Beləliklə, tariximizin möhtəşəm mərhələsinin - qayıdışdan başlanan qurtuluş dövrünün salnaməsi yazıldı.

Azərbaycanın inkişafının böyük bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Zaman ötdükcə Onun Azərbaycanın inkişafı naminə gördüyü işlərin miqyası daha dərindən dərk olunur. Prezident İlham Əliyev 29 sentyabr 2022-ci il tarixində "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncam imzalayıb. Sözügedən sərəncama uyğun olaraq cari ildə H.Əliyevin ümumi fəaliyyəti ətraflı şəkildə dünyaya çatdırılacaq. Heydər Əliyev qısa müddətdə respublikamız barədə keçmiş ittifaqda yaranan stereotipləri dağıtmağa, rejimin buxovlarını məharətlə sındıraraq milli dirçəlişə, yeni intibaha, gələcəkdə müstəqil yaşamağa zəmin ola biləcək fundamental əsaslar yaratmağa nail oldu. Azərbaycanın gələcək inkişafı baxımından güclü iqtisadiyyatın qurulmasının önəmini yüksək dəyərləndirən Heydər Əliyev qısa müddətdə respublikamızı keçmiş ittifaqın aqrar əlavəsindən çıxardaraq yüksək texnologiyalı sənaye inkişafına istiqamətləndirdi. Heydər Əliyev öz nüfuzundan istifadə edərək bir sıra ümumittifaq əhəmiyyətli iqtisadi layihələrin məhz Azərbaycanda reallaşdırılmasına nail olurdu. Ulu Öndərin respublikaya rəhbərlik etdiyi dövrdə neft sənayesində tənəzzül meyilləri aradan qaldırıldı, neft və qaz ehtiyatlarından səmərəli istifadə edilməsi milli inkişafa mühüm töhfələr bəxş etdi.

Heydər Əliyevin Azərbaycanın sabahı naminə misilsiz fəaliyyəti bütün mühüm istiqamətləri əhatə edirdi. Bu sırada Ulu Öndərin milli mədəniyyətə, ədəbiyyata, Azərbaycan dilinə böyük qayğısını xüsusi qeyd etmək lazımdır. Milli ideoloji siyasətin tərkib hissəsi kimi, 1978-ci ildə ulu öndər Heydər Əliyevin cəhdləri və təşəbbüsü sayəsində Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edildi. Bu, milli ideologiyamızın funksional vahidi olan milli dilimizin mühafizəsi və təbliği baxımından mühüm tarixi strateji addım oldu. Bunun ardınca "Müasir Azərbaycan dili" və "Azərbaycan dili" dərslikləri hazırlandı.

Təmsil etdiyi xalqın məhəbbətini və inamını qazanmaq liderin, siyasi xadimin əldə edə biləcəyi ən böyük uğurdur. Bu mənada, deyə bilərik ki, Heydər Əliyev xoşbəxt bir dövlət xadimi olub. O, hələ sağlığında ikən xalqın qəlbində əbədiyaşarlıq qazanmışdı. Sərəncamda Heydər Əliyevə bütün dünya azərbaycanlılarının inamının və rəğbətinin böyük olduğuna diqqət çəkilərək vurğulanıb: "Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir.

Hər xalqın dirçəlişi, dünya arenasında öz sözünü deməsi, XXI əsrin sürətlə qloballaşan dinamik strukturuna hansı dərəcədə adaptasiya olunmasından xeyli dərəcədə asılıdır. Bu zaman əsas məsələ millətin bütün təbəqələrinə xitab edən inteqrativ ideyanın, yəni əsl milli məfkurənin mövcudluğu və dayanıqlılığı mühüm əhəmiyyət kəsb edir.

Yaxın tarixi təcrübəmiz real şəkildə sübut etdi ki, əgər müstəqillik həqiqi mənada xalqa xidmət edirsə millətə öz milli həyatını sərbəst, özünəməxsus şəkildə qurmaq imkanı verirsə, yalnız bu halda o, milli inkişafın ən müqəddəs şərti hesab olunur. Ümummilli lider Heydər Əliyevin vaxtilə söylədiyi "Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm" deyimini bu gün də həyəcansız xatırlamaq mümkün deyil. Ulu öndərin bu həyat manifesti bizdə ölçüyəgəlməz qürur hissi doğurur, çünki bu optimizmdə onun rəhbərliyi ilə milli varlığımızın taleyüklü problemlərinin həlli yolunda atılan uğurlu addımları, milli tərəqqiyə mane olan neqativ əyintiləri vaxtında təmkin və qətiyyətlə aradan qaldırmaq əzmi və bacarığı, elin qüdrətindən mayalanan milli təfəkkürün yaradıcı potensial təcəssümünü tapmışdır. Məhz buna görə Heydər Əliyevin müstəqillik konsepsiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlar fonunda xüsusi aktuallıqla səslənir.

Ümummilli lider Heydər Əliyev özünün bütün siyasi karyerası boyu xalqımızın müstəqilliyə yetmək istəyini dərindən duymuş və müdafiə etmiş, bu taleyüklü milli problemin məzmun və mahiyyətinə dərindən nüfuz etmiş, bu amalı özünün fəaliyyət kredosuna çevirmişdir. O, istər dərin məzmunlu çıxışlarında, istərsə də xalqla keçirdiyi görüşlərdə səsləndirdiyi ideyalarla müstəqillik konsepsiyasının nəzəri-praktiki əsaslarını yaratmışdır. Bu konsepsiyada milli dövlətçilik ideyaları ilə həmin ideyaları həyata keçirən müdrik siyasətin obrazının dialektik vəhdətini görürük.



Şablon düşüncə tərzini hər zaman kəskin tənqid edən Heydər Əliyevin müstəqillik konsepsiyası mühüm nəzəri-praktik model kimi milli reallıqlarımızın və bu reallıqların xarici faktorlarla şərtlənməsinin analitik, yaradıcı dərkinin məhsuludur.

Hər bir xalqın tarixdəki yeri və rolu mürəkkəb siyasi şəraitdə məsuliyyəti üzərinə götürərək onun taleyində misilsiz rol oynamış, mütərəqqi ideyaları, qeyri-adi idarəçilik keyfiyyətləri ilə müdrikcəsinə və uzaqgörənliklə sabit dövlətçilik ənənələri yaratmış dahi şəxsiyyətin fövqəladə missiyası ilə şərtlənir. Tanrının bəxş etdiyi belə seçilmiş şəxsiyyətlər xalqlarının əsrlər boyu cilalanmış dövlətçilik təfəkkürü, siyasi dünyagörüşü, milli dəyərləri əsasında optimal dövlət modeli və siyasi varislik ənənələri yaradırlar. Ruslar üçün bu şəxsiyyət I Pyotr, amerikalılar üçün Corc Vaşinqton, ingilislər üçün Uinston Çörçil, fransızlar üçün Şarl de Qoll, almanlar üçün Otto fon Bismark, çinlilər üçün Mao Tszedun, türklər üçün Mustafa Kamal Atatürkdürsə, azərbaycanlılar üçün Heydər Əliyevdir!

***Qax Rayon***
***Statistika İdarəsinin rəisi***
***Xəzri Məmmədov***

# ASC bölgələrdə suvarma mövsümünə hazırlıqlara başlayıb

***Bərdədə yeni suvarma mövsümünə hazırlıqlar gedir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Bərdə Suvarma Sistemləri İdarəsi Bərdə rayonunda 63406 hektar əkin sahəsinin suvarılmasına xidmət edir.***

İdarənin balansında 1260 km suvarma kanalı vardır. Bundan 112 km nov kanallar, 32 km qapalı şəbəkə, 851 km-i torpaq kanaldır. Hər il mütəmadi olaraq torpaq məcralı kanallarda su itkisinin qarşısının alınması, maneəsiz olaraq fermerlərə çatdırılması üçün lildən təmizləmə işləri aparılır. Hazırda idarənin texnikaları vasitəsi ilə bir neçə istiqamətdə kanallar lildən təmizlənir. Bundan başqa suvarmada istifadə üçün 2 ədəd su anbarından, 5 ədəd səyyar tipli SNP nasosdan və 15 ədəd nasos stansiyadan istifadə olunur.



Bərdə rayonunun əsas su mənbəyi Yuxarı Qarabağ Kanalı, Tər-tər çayı, subartezian quyuları və Kür çayı üzərində qoyulmuş nasos stansiyalarıdır. 2022-ci ildə rayon üzrə 63406 hektar sahə 5.37 dəfə suvarılıb. Cari ildə isə balansda olan torpaqlara aşağıdakı qaydada kənd təsərrüfatı bitkiləri əkilib. Bunlar 10931 ha pambıq, 11862 ha taxıl, 22907 ha yonca, 12506 ha digər əkinlər və 5200 ha həyətyanı sahələrdir. Ötən il idarə tərəfindən 48 ədəd hidro metrik postlar cari təmiri edilib, 1064 min.m3 kanallar lildən təmizlənib. Kollektor dren sisteminin 992 min.m3 -i yəni, 283 km hissəsi lildən təmizlənib. Bundan başqa 350 ədəd subartezian quyusu cari təmiri edilib.

Məlumat üçün bildirək ki, Bərdə Suvarma Sistemləri İdarəsi tərəfindən əsaslı təmir planına uyğun olaraq 3 ədəd nasos stansiyanın elektirik avadanlığı, torpaq məcralı kanalın 1.3 km-i və R-13 beton kanalının 1.5 km-i beton üzlüyə alınıb. Kollektor və drenaj sistemində 3 ədəd borulu keçidinin əsaslı təmiri, elektirik təsərrüfatının təmiri, su saygacının quraşdırılması və abadlıq işləri görülüb.

Beyləqanda yeni subartezian quyusu 100 ailəyə xidmət edir. Dilqəm Şərifov bildirib ki, Beyləqan Suvarma Sistemləri İdarəsi Beyləqan rayonunda 51356 ha, İmişli rayonunda isə 639 ha sahəni suvarma su ilə təmin edir. Hazırda idarənin balansında 1300 km-ə yaxın uzunluğunda suvarma kanalı, 1333 km uzuluğunda kollektor-drenaj şəbəkəsi, 117 ədəd subatrezian quyusu var. İdarə tərəfindən mütəmadi olaraq nasazlıqlar olan quyulara baxış keçirilir və dərhal aradan qaldırılır. Bu məqsədlə 103 ədəd subatrezian quyusu cari təmir edilib. Bundan başqa son illər ərzində torpaq məcralı kanalların beton üzlüyə alınması ilə su itkisinin də qarşısı alınmış olub. Hazırda bu istiqamətdə işlər davam edir.Əsasən yay aylarında su problemi yaşanan Kəbirli kəndində qazılan yeni subartezian quyusu vasitəsi ilə kənd sakinlərinin suvarma və içməli suya olan tələbatı ödənilib. Bu quyu vasitəsilə 100 ailənin su problemi aradan qaldırılıb.

Beyləqan Suvarma Sistemləri İdarəsi tərəfindən istismar tədbirlər planına uyğun olaraq 2022-ci il ərzində 195 km uzunluğunda suvarma kanalı, 107 km uzunluğunda kollektor-drenaj şəbəkəsini lildən təmizlənib, 2351 min kbm. həcmində torpaq işi görülüb, 24 ədəd hidrotexniki qurğu təmir olunub. Su istifadəçilərinə suvarma suyunun vaxtında və itkisiz çatdırılması üçün torpaq kanallarda, o cümlədən müəyyən ərazilərdə müşahidə olunan şoranlaşmanın qarşısının alınması məqsədilə kollektor-drenaj şəbəkələrində mütəmadi olaraq lildən təmizləmə işləri aparılır.

Qeyd edək ki, Beyləqan Suvarma Sistemləri İdarəsi iki su mənbəyinin, Xan qızı kanalı vasitəsi ilə Araz çayının, Qarabağ kanalı vasitəsi ilə Kür çayının suyundan istifadə edərək əkin sahələrinin suvarılmasını həyata keçirir.

Yuxarı Qarabağ Kanalında yaz-yay suvarma mövsümünə hazırlıq gedir. Dilqəm Şərifov bildirib ki, Yuxarı Qarabağ Kanalı İstismarı İdarəsi 2023-cü ilin yaz-yay suvarma mövsümünə hazırlıq məqsədilə gücləndirilmiş iş rejiminə keçib. İdarə tərəfindən təsdiq olunmuş limitə və tələbata uyğun olaraq ayrı-ayrı rayonların su bölgüsünün düzgün uçotu aparılıb. Eyni zamanda Mingəçevir Su Anbarından götürülən suyun limitə uyğun bölünməsi ilə yanaşı Araz çayına suyun stabil olaraq verilməsi təmin olunub. Kanalda su itkisinin qarşısının alınması məqsədilə tədbirlər planına uyğun olaraq bəndlərin bərkidilməsi və lildən təmizləmə işləri də görülüb. Hazırda kanalda bənbərkitmə və daxili yamaclarında betonlama işləri davam edir. Bunun üçün əraziyə xeyli sayda texnika cəlb olunub.

İdarə tərəfindən balansda olan 28 ədəd hidrotexniki qurğu təmir olunub. Eyni zamanda istesalat və məişət tullantıları hidotexniki qurğuların giriş və çıxış hissəsindən əl üsulu ilə də təmizlənib. Ləpədöyən əyrilərdə kanalın daxili yamaclığında yuyulmanın qarşısının alınması üçün faşen-qamış bəndləri qurulub. 2023-cü ildə suyun uçotunun düzgün aparılması məqsədiylə kanaldan çıxan 16 ədəd paylayıcı qurğunun çıxış hissəsinə müasir tələblərə cavab verən avtomatik suölçü məntəqələri quraşdırılıb. Vegetatsiya suvarma mövsümü başlayana qədər kanalda suyun minumum həddə olduğu üçün 2 vacib hissəsində yamaclıqların beton üzlüyə alınması işləri də nəzərdə tutulur.

Qeyd edək ki, Yuxarı Qarabağ Kanalı Respublikanın ən böyük magistral suvarma kanalıdır. Öz mənbəyini Mingəçevir Su Anbarından öz axımı ilə götürən kanal ölkənin 6 rayonunun ərazisindən keçməklə 11 rayonda 130 min hektar əkin sahəsinə xidmət edir. Kanalın uzunluğu 172.4 km-dir.

***Hüseyn İsgəndərov***



# Günəş ömrü yaşayanlar...

***Baloğlan Şakir oğlu Əhədlinin qismətində sevdalandığı Vətən üçün qurban getmək varmış. Odur ki, İkinci Qarabağ müharibəsində qorxmadan, çəkinmədən özünü odun-alovun içinə atdı. Yağı düşmənlə son nəfəsə qədər döyüşüb 18 yaşında qəhrəmancasına şəhid oldu. Şərəfli ölümü Vətəninə, millətinə baş ucalığı gətirməklə, həm də gələcək nəsillər üçün örnək olacaq bir tarixə döndü. Dövlət də öz igid oğlunu daim ucalıqda saxlamaqla onu ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə " ordeni, " Vətən uğrunda", "İgidliyə görə", eləcə Füzulinin, Qubadlının, Şuşanın azadlığına görə medalları ilə təltif etdi.***

10 yanvar 2002-ci ildən Lənkəran rayonun Gəgiran kəndində anadan olan, üç bacının bir qardaşı Baloğlan Əhədli həyatı dərk edən gündən erməni quldurların hərəkətləri ilə heç cür barışa bilmir. Vətənin taleyini düşünən yeniyetmə məhz buna görə də ordu sıralarına yola düşəndə doğma Azərbaycana vicdanla, qeyrətlə xidmət edəcəyinə, murdar niyyətli erməni dığalarına qarşı amansız olacağına, məqamı gələndə vuruşub işğal altında qalan torpaqların, günahsız tökülən qanların qisasını alacağına and içir.

Baloğlan döyüş bölgəsində canından əziz bildiyi , daşına, torpağına ürəkdən bağlandığı, müqəddəsliyinə tapındığı Azərbaycanın keşiyində durur və ona yaralı övlad olduğu ilk günlərdən bilinir. Təlimlər zamanı isə göstərdiyi çevikliyi, yüksək döyüş keyfiyyətləri ona hörmət gətirir. Bir qayda olaraq əzəli, əbədi yurd yerimiz Qarabağın azadlığı uğrunda erməni quldarları ilə döyüşməyə həmişə hazır durur, qəlbində onlardan qisas almaq alovu get-gedə güclənir. Elə buna görə də 27 sentyabr 2020-ci ildə İkinci Qarabağ savaşı başladığı kimi Baloğlan qeyrətli Vətən oğulların sırasında müharibə meydanına birinci girir.

İgid əsgər erməni qəsbkarlarına qarşı mərdliklə vuruşur. Suqovuşandan Şuşaya qədər min əzablı-əziyyətli ölümlü yollar keçir. Endirdiyi sarsıdıcı zərbələri düşmənin xeyli sayda canlı qüvvəsi məhv edir, döyüş texnikasını sıradan çıxardır . Döyüşdəndöyüşə Baloğlan qələbəyə böyük ümid bəsləyir, tezliklə Vətən torpaqlarının tam azadlığına inanır. Füzuli, Cəbrayıl və Şuşa istiqamətlərində gedən ağır döyüşlərdə misilsiz fədakarlıq və şücaət göstərir. Son döyüş yeri Şuşada olur. Zəfərimizə bir gün qalmış düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində ömrünü Vətəninə bağışlayır. Doğma kəndi Gəgiranda uğrunda qan tökdüyü torpağın sinəsinə əbədi baş qoyur. Və Günəş ömrü yaşamaq üçün milyonların ürəyində özünə yer edir.

***Zəfər Orucoğlu, AJB üzvü***



# Ərdoğan bu tarixdə Putin və Zelenski arasında görüş təşkil etmək istəyir

***Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya və Ukrayna liderləri Vladimir Putin və Volodimir Zelenskinin apreldə İstanbulda görüşünü təşkil etmək istəyir.***

"Unikal" xəbər verir ki, bunu Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Altınbaş Universitetinin (İstanbul) rektoru Çağrı Erhan Lente.ru-ya müsahibəsində deyib. "Türkiyənin indi yeganə missiyası prezidentlər Putin və Zelenskinin xarici müdaxilə olmadan heç olmasa bir dəfə görüşməsi və birbaşa danışması üçün şərait yaratmaqdır", - deyə vurğulayıb.

O qeyd edib ki, yalnız bu formatda münaqişə tərəfləri sülh yolu ilə nizamlanma üçün kompromis həll yoluna gələ biləcəklər.

*Gülayə Mecid*

# Brüsseldə üçtərəfli görüş keçiriləcək

***Türkiyə NATO-ya üzv olmaq istəyən İsveç və Finlandiya ilə üçtərəfli görüş keçirəcək.***

"Unikal" xəbər verir ki, görüş bu gün Brüsseldə baş tutacaq.

İsveç bu gün PKK kimi terror təşkilatlarının maliyyələşdirilməsini və iştirakını qadağan edən qanun layihəsinə səs verəcək. İsveç baş naziri Kristersson PKK-ya qarşı daha sərt tədbirlər gördüklərini bildirib. Qeyd edək ki, NATO-ya üzvlüklə bağlı görüşlər Stokholmda Quranın yandırılması səbəbindən Ankara tərəfindən dayandırılmışdı.

*Ağarza Elçinoğlu*

# Gürcüstan parlamenti etirazlara səbəb olan qanunu ləğv etdi

***Gürcüstanın hakim partiyası kütləvi etirazlardan sonra "xarici agentlər" haqqında qanunu ləğv edib.***

"Unikal" xəbər verir ki, bu barədə parlamentin saytında məlumat dərc edilib. Qeyd edək ki, Gürcüstan parlamentində "xarici agentlər haqqında" qanun layihəsi birinci oxunuşda qəbul edilmişdi.

# Rusiya Baxmut yaxınlığındakı kəndi işğal etdi

***"Vaqner" özəl hərbi şirkətinin (PMC) döyüşçüləri Baxmutdan şimal-qərbdə yerləşən Dubovo-Vasilevka kəndini nəzarətə götürüblər.***

"Unikal" xəbər verir ki, bu barədə PMC-nin təsisçisi Yevgeni Priqojin bildirib. "Dubovo-Vasilevka tamamilə Vaqner PMC-nin nəzarəti altındadır. Ətrafda döyüşlər gedir. Qəsəbənin bütün ərazisi bizim əlimizdədir", -məlumatda deyilir. Qeyd edək ki, artıq bir neçə həftədir Baxmut uğrunda döyüşlər davam edir.

# Qazaxıstanın sabiq müdafiə naziri həbs edildi

***Qazaxıstanın eks-müdafiə naziri Murat Bektanova 12 il müddətinə azadlıqdan məhrum edilib.***

"Unikal" Qazaxıstan KİV-ə istinadən xəbər verir ki, sabiq müdafiə nazirinə Cinayət İşləri üzrə İxtisaslaşdırılmış Rayonlararası Hərbi Məhkəməsində hökm oxunub.

Qeyd edək ki, istintaq 2022-ci il fevralın 19-da "xidmətdə fəaliyyətsizlik faktı" üzrə başlayıb. Məhkəmə işə "Sirr" rubrikası ilə baxıldığını bildirərək, daha ətraflı məlumat verməkdən imtina edib.

Qazaxıstanın Baş prokuror Berik Asılov bildirib ki, Bektanov döyüş şəraitində vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə və açıq-aşkar qanunsuz göstərişlər verməkdə, hərbi strateji obyektləri mühafizəsiz qoymaqda ittiham olunur.

# "Rusiyanın Gürcüstandakı iğtişaşlarla əlaqəsi yoxdur" - Peskov

***Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov ABŞ səfirliyinin Gürcüstandakı xarici agentlər haqqında qanunun Kremldən ilhamlanaraq qəbul edilməsi barədə bəyanatını şərh edib.***



"Unikal" xəbər verir ki, bu barədə Peskov jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, Moskvanın bununla heç bir əlaqəsi yoxdur və bu cür qanunların tətbiqi praktikasında pioner məhz ABŞ olub. Kreml sözçüsü onu da qeyd edib ki, gürcü qanun layihəsinin bir variantı oxşar Amerika qanununa bənzəyir, ikincisi isə mahiyyət etibarı ilə Rusiyanın bunlara heç bir aidiyyatı yoxdur.

Martın 7-də Gürcüstan parlamenti səs çoxluğu ilə xaricdən maliyyələşən qeyri-hökumət təşkilatlarının və KİV-lərin reyestrinin yaradılmasını nəzərdə tutan "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsini birinci oxunuşda qəbul edib. Bu, Gürcüstanın paytaxtı Tbilisidə genişmiqyaslı etirazlara səbəb olub.

Etirazlardan sonra Gürcüstanda hakim "Gürcü arzusu" partiyası, "Xalqın Gücü" ictimai hərəkatı və parlament çoxluğu "Xarici agentlər haqqında" qanun layihəsini Gürcüstan parlamentindən geri götürmək qərarına gəlib.

*Gülayə Mecid*

# "Putinlə görüşəcəyimi təsəvvür belə edə bilmirəm" - Zelenski

***Ukrayna prezidenti Volodimir Zelenski rusiyalı həmkarı Vladimir Putinlə hansı şəraitdə görüşəcəyini təsəvvür edə bilmir.***



"Unikal" xəbər verir ki, o, bu barədə CNN telekanalına müsahibəsində bildirib.

"Rusiya Federasiyasının prezidenti ilə ünsiyyətdə olmaq üçün belə hallar yoxdur, çünki o, verdiyi sözü tutmur. Bizim ona heç bir etimadımız yoxdur", - deyə Zelenski bildirib.

Dövlət başçısı əlavə edib ki, diplomatik vasitələrdən istifadə etməyə başlamazdan əvvəl Rusiyanın Ukrayna ərazisini tərk etməsini təmin etmək lazımdır.

"Qızım Kiyevdə universitetə daxil olub, oğlum isə məktəbdə oxuyur. Onların hər ikisi Ukraynadadır. Onlar digər ukraynalı uşaqlara çox bənzəyirlər. Sirenlərlə yaşayırıq... Qələbə istəyirik. Biz müharibəyə öyrəşmək istəmirik, amma çağırışlara öyrəşmişik. Hamı bir şey istəyir - müharibənin başa çatması", - deyə o, yekunlaşdırıb.

Bundan əvvəl Moskvanın Rusiya və Ukrayna prezidentləri Vladimir Putin və Volodimir Zelenski arasında mümkün danışıqlarla bağlı mövqeyini dəyişdiyi bildirilib.

*Gülayə Mecid*

# Ermənistanda intihar edən hərbçi eks-müdafiə nazirinin qohumu imiş



***Ermənistanda intihar edən hərbçi Anrdanik Ohanyanın keçmiş müdafiə naziri, "Ermənistan" fraksiyasının lideri Seyran Ohanyanın qohumu olduğu üzə çıxıb.***

"Unikal" erməni KİV-lərinə istinadən xəbər verir ki, sevgilisi ilə mübahisə edərək ağacdan özünü asan əsgər eks-nazirin əmisinin nəvəsidir.

Hazırda hadisənin başvermə şəraitinin tam aydınlaşdırılması üçün təxirəsalınmaz tədbirlər görülür.

*Ağarza*

# Vadim Krasnoselskiyə qarşı sui-qəsdin qarşısı alındı

***Qondarma Dnestryanı Respublikanın lideri Vadim Krasnoselskiyə qarşı sui-qəsdin qarşısı alınıb.***

"Unikal" "RİA Novosti"yə istinadən xəbər verir ki, bu barədə qondarma rejimin Dövlət Təhlükəsizlik Nazirliyi məlumat yayıb. Bildirilir ki, Ukrayna Təhlükəsizlik Xidmətinin (SBU) göstərişi ilə Moldova Respublikasının bir sıra məmurlarına sui-qəsd hazırlanıb. Şübhəlilərin saxlanıldığı bildirilir.

Baş vermiş faktla bağlı terror aktına hazırlıq və iki və ya daha çox şəxsin xidməti fəaliyyətlə əlaqəli qətlə hazırlama maddələri ilə cinayət işi başlanıb.

*Gülayə Mecid*

# "Bavariya" PSJ səddini keçdi, "Milan" 1/8 finalda - Çempionlar Liqası

***UEFA Çempionlar Liqasında 1/8 final mərhələsinin daha iki cavab oyunu keçirilib.***

"Unikal" xəbər verir ki, ilk oyun Almaniyanın "Bavariya" klubu ilə Frnasanın PSJ komandası arasında oynanılıb.

Səfərdə qalib gələn almanlar (1:0 - red.) evdə də qələbə qazanıb - 3:0.

Digər görüşdə isə İtaliyanın "Milan" klubu İngiltərədə "Tottenhem"lə qarşılaşıb.

Milandakı ilk qarşılaşmada minimal hesablı qələbə qazanan qırmızı-qaralar səfərdə qolsuz heç-heçəyə nail olaraq, adını növbəti mərhələyə yazdırıb.

Beləliklə "Bavariya" və "Milan" ? mərhələyə adlayıb.



# "Konte məni ehtiyat oyunçular skamyasında saxladı"

***"Tottenhem"in futbolçusu Rişarlison komandanın Çempionlar Liqasından mübarizəni dayandırmasından sonra klubdakı rolundan danışıb.***

Qol.az ESPN-ə istinadən xəbər verir ki, "Tottenhem" ötən gecə 1/8 finalın cavab oyununda "Milan"la ilə qolsuz heç-heçə etsə də, ilk görüşdə uduzduğu (0:1) üçün mərhələni keçə bilməyib. Rişarlison cavab görüşündə meydana 70-ci dəqiqədə daxil olub. 25 yaşlı hücumçu oyundan sonra açıqlamasnda komandada az şans almasından narazı olduğunu bildirib:



"Mən bunu başa düşmürəm. Mənim üçün hər şey yaxşı keçdi, yaxşı dövr gəldi, "Vest Hem" və "Çelsi"ni məğlub etdik. Həmin oyunlarda meydana start heyətdə çıxdım. Və Konte birdən məni ehtiyat oyunçular skamyasına oturtdu, "Vulverhempton"la oyunda meydana 5 dəqiqəlik buraxdı. Ondan soruşdum: "Niyə belədir?" Konte mənə cavab vermədi. Matçdan bir gün əvvəl o, məndən oyuna hazır olub-olmadığımı öyrənmək üçün idman zalında "imtahan" verməyimi istədi. Və matçdan dərhal əvvəl məni ehtiyat oyunçular skamyasında qoyub getdi. Belə şeyləri başa düşmək sadəcə mümkün deyil. Görək, sabah nə deyir. Amma burada axmaq yoxdur. Mən peşəkaram. Mən hər gün işləyirəm və oynamaq istəyirəm.

Bu çox oynamadığım üçün məni bağışlayın. Çünki bu, sadəcə axmaqlıqdır. Zədəm var idi. Amm bu, geridə qalıb. Meydana daxil olub canımı verməyə hazıram. Yaxşı 2 matç keçirdim. Düşünürəm ki, "Milan"la oyuna start heyətində başlamalıydım".

Qeyd edək ki, Rişarlison bu mövsüm 25 oyuna çıxıb. Onun aktivində 2 qol (hər ikisi Çempionlar Liqasının qrup mərhələsinin ilk oyununda "Marsel"ə qarşı) və 2 qol ötürməsi var. Ümumilikdə braziliyalı futbolçu meydanda 1121 dəqiqə keçirib.

# "Qarabağ"a qalib gələ bilirsənsə, fəxr etməlisən" - Heyn Vanhazebruk

***Belçika "Gent"inin baş məşqçisi Heyn Vanhazebruk Konfrans Liqasının 1/8 finalında "Başakşehir"lə oyun öncəsi fikirlərini bildirib.***

Qol.az xəbər verir ki, o, turnirin pley-off mərhələsində qarşılaşdıqları "Qarabağ"da haqda da danışıb: "Biz "Qarabağ"ı mübarizədən kənarlaşdırdıq. "Başakşehir" bu mövsüm qarşılaşdığımız ən yaxşı komanda ola bilər, amma "Qarabağ"ı da qiymətləndirməliyik. Onlar



Çempionlar Liqasının ilkin mərhələsində üç çempionu turnirdən kənarlaşdırdılar. Əslində onlar Avropa Liqasının qrup mərhələsini 2-ci pillədə bitirməyə layiq idilər. Ancaq "Frayburq"la görüşdə üstünlüklərini əldən verdilər. "Qarabağ"a qalib gələ bilirsənsə, fəxr etməlisən".

Xatırladaq ki, komandalar arasında Bakıda keçirilən ilk oyun "Qarabağ"ın, Gentdəki cavab matçının əsas və əlavə vaxtı isə "Gent"in 1:0 hesablı qələbəsi ilə başa çatıb. Penaltilər seriyasında "Gent" üstün (5:3) olub.

# Messi ardıcıl 8 ildir ÇL-də finala çıxa bilmir

***PSJ-nin futbolçusu Lionel Messi ardıcıl 8-ci il Çempionlar Liqasının finalını buraxacaq.***



Paris təmsilçisi ÇL-in 1/8 finalında "Bavariya" ilə matçın nəticələrinə əsasən (0:1, 0:2) mübarizəni dayandırıb.

Argentinalı hücumçu PSJ ilə ardıcıl 2 ildir ÇL-in finalına yüksələ bilmir. O, sonuncu dəfə sabiq klubu "Barselona" ilə 2015-ci ildə finala yüksəlib. Həmin vaxt Kataloniya təmsilçisi "Yuventus"a 3:1 hesabı ilə qalib gələrək kuboku qazanıb.

# Qaltye: "Hesabı açsaydıq, oyun başqa cür olardı"



***"Qol vura bilmirdik. Birinci hissəni yaxşı keçirdik. Yaxşı rəqabət apara bilirdik. Qol vəziyyətlərimiz var idi. Daha soyuqqanlı olmağı öyrənməliyik".***

Qol.az xəbər verir ki, bu sözləri PSJ-nin baş məşqçisi Kristof Qaltye Çempionlar Liqasının 1/8 finalında "Bavariya"ya 0:2 hesabı ilə uduzaraq mübarizəni dayandırdıqları cavab oyunundan sonra deyib.

"Bavariya"nın təzyiqi altında idik, bunu bilirdik. Biz bu təzyiqi qırmağa çalışmalıydıq. Amma matç başlayandan bir saat sonra qol buraxırsansa, bu çətinləşir. Bunun bir dərs olub-olmadığını bilmirəm, amma açıq şəkildə məyus olduq. Hesabı açsaydıq, oyun başqa cür olardı" - deyə o bildirib.

Mütəxəssis söyləyib ki, Münhen təmsilçisi fiziki cəhətdən daha yaxşıdır: "Hər iki matçda çox vacib itkilərimiz oldu. Mərkəz müdafiəçilərini dəyişməli olduq. Bu, bizi zəiflətdi. Biz bu qarşıdurmanı təkrarlaya bilmərik, yalnız irəliyə baxa bilərik.

Çempionatda yolumuza davam etmək üçün baş verənləri qəbul etməliyik. Hamı məyusdur, o cümlədən mən. Cavab oyununa böyük ümidlər bəsləyirdik".

# "Çelsi"yə böyük mərc

***Çempionlar Liqasının bu həftə keçirilən oyunlarında böyük mərc qeydə alınıb.***

Apasport.az saytının məlumatına görə, bukmeker kontorunda təkli kuponda 500 min rublluq (11 min 150 manat) qoyuluş qəbul olunub.

Müştəri "Çelsi"nin Dortmund "Borussiya"sı ilə görüşünə Fora1 (-1) proqnozu verib. Həmin an belə variantın əmsalı 2,20-yə bərabər olub.

Betterin bəxti hakimin mübahisəli qərarı ilə gətirib. Hesab 1:0 olarkən təyin olunan penaltini Kay Haverts qaçırsa da, referi zərbənin təkrarlanmasını istəyib. Bu da böyük müzakirə və mübahisələrə səbəb olub. Sevinən isə kontorun müştərisi olub. Alman futbolçunun dəqiq zərbəsi ilə "Çelsi" 2:0, proqnozsevər isə 1 milyon 100 milyon rubl (24 min 530 manat) udub.

